Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

20 AVQUST 2019-cu il

№ 144 (4042)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# BURAXILIŞ ƏRƏFƏSİNDƏ OLAN TANAP «GƏNCƏ 1 İL» FONUNDA FƏALLAŞAN RADİKAL İSLAMÇI QRUPUN HƏDƏFİNDƏ...

səh. 4

Gəncə terrorundan sonra bir il - "Şiə dövləti qurmaq" planları sübut edildi səh. 5

Ermənistanda yeni Qarabağ qarşıdurması başlanır səh. 9

Oktyabrın 1-də Putin ermənilərі indidən qurduqları plana görə məyus edə bilər səh. 5

Türkiyə - Rusiya işbirliyi geosiyasi proseslərdə Azərbaycanın mövqeyi ilə ala sinxronlaşır səh. 7

Lerikdə "Relaks" İstirahət Mərkəzində dövlət orqanlarına "meydan oxuma" hərəkətlərinə rəsmi qiymət verildi... Həbslər aparıldı... səh. 2

Bakıda elit evlərin inşası dayandı səh. 11

Banklarda manat depozitləri artır, valyuta depozitləri azalır, nə baş verir... səh. 12

Məktəblilərimizin yeni formalarında hansı element dəyişiklikləri olacaq... səh. 14








səh. 6

## Bir ildə cəmi 10 min manat vergi ödəmiş deputatın böyük istirahət mərkəzində həbslər aparıldı...



## Putin-Əliyev-Ruhani zirvəsinin baş tutmamasından erməni sevinci yarımçıq qaldı - Uşakovun bəyanatı...

səh. 8

## Ermənistan bir ovuc kökü bilinməyən yezidi kürd üzərində «çoxmillətli cəmiyyət oyunu» oynayır...

səh. 10




## «Facebook» üzərindən videoyayım aparan mühacir azərbaycanlılara pul yığımında ermənilər də fəal iştirak edir

səh. 4

səh. 3

Gəncə terrorunun birilliyi fonunda "radikal islamçı qruplardan biri yenidən fəallaşıb"...



səh. 8

Sərhədçilərimizin Qazaxda mövqe irəliləyişi - danışıqlar prosesinə təsir göstərə biləcək yeni faktor...



səh. 13

Nəzarətsiz uşaqların qaraçılar tərəfindən oğurlanması xəbərləri ciddiləşir



səh. 12

Sığorta bazarında 9 faizə yaxın tənəzzül...



səh. 15

Azərbaycanda boşanmalar həqiqətən artan problemə çevrilməyə başlayır



## Azərbaycan - Gürcüstan sərhədlərinin delimitasiyası üzrə daha bir addım atıldı...

**Avqustun 19-da Gürcüstan və Azərbaycan Respublikasının dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə dövlət komissiyalarının ekspertlərinin işçi görüşü keçirilib.**



XİN-dən aldığımız məlumata görə, tərəflər delimitasiya prosesinin gedişatını muzakirə edib və razılaşdırılmamış sahələrlə bağlı öz mövqelərini ifadə ediblər. Görüləcək sahə işləri, razılaşdırılmamış sahələrdə birgə ölçmə işlərinin aparılması və həmin yerlərə baxış keçirilməsi planlaşdırılıb.

19-23 avqust tarixlərində ekspertlər ayrı-ayrı sahələrə birgə baxış keçirəcək və gələcək mərhələdə qalan digər razılaşdırılmamış sahələrə də baxış keçirməyi planlaşdırıracaqlar.

## Ermənilər taktikanı dəyişir - Obamanı İrəvana gətirirlər...

**Ermənilər oktyabrın 6-9-da İrəvanda keçirmək istədikləri İnformasiya texnologiyaları üzrə dünya konqresinə sabiq ABŞ prezidenti Barak Obamanı da gətirmək üçün ciddi fəaliyyətə başlayıblar.**

Bu barədə Texnoloji şirkətlər ittifaqının sədri Esayan məlumat verib. Ermənilər Obamanın konqresdə 10 əsas məruzəçidən biri olmasını istəyirlər. Xeyli vaxtdır Obamanın ofisi ilə bu barədə danışıqlar getsə də, hələlik konkret nəticə yoxdur.

İstisna deyil ki, ermənilər istənilən şərtlər daxilində, hətta lazım gəlsə qiymətli hədiyyələr vəd etməklə Obamanın İrəvana gəlişinə nail olmaq istəyirlər.

Xatırladaq ki, erməni rəhbərlərin indiki respublikaçı hakimiyyətlə ən yüksək əlaqə qurmaq planları heç bir nəticə vermir. Görünür, respublikaçılara tam ümidini itirmiş Ermənistan rəhbərliyi yenidən demokratların qapısına qayıdır və bu prosesə Obamadan başlamaq istəyir.

*Ramil QULİYEV*

# Vilayət Eyvazov Daxili Qoşun əsgərləri ilə birlikdə nahar etdi...

**Daxili İşlər Nazirliyi Mətbuat xidmətinin məlumatına görə, avqustun 18-də Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov DİN Daxili Qoşunlarının paytaxtda yerləşən "N" saylı hərbi hissəsində olub.**



Əvvəlcə nazir müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov general-polkovnik Vilayət Eyvazova şəxsi heyətin və hərbi texnikanın baxışa hazır olması barədə raport verib.

Nazir şərəf manqası ilə salamlaşdıqdan sonra şəxsi heyətin kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu və təminat məsələləri ilə yaxından tanış olub, xidməti istifadədə olan texnikaya baxıb, ərazidə aparılan abadlıq, quruculuq işləri ilə maraqlanıb.

Sonra hərbi hissənin sıra meydanında hərbi qulluqçuların və əsgərlərin qarşısında çıxış edən nazir V.Eyvazov ulu öndərin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının artdığını, beynəlxalq mövqelərinin möhkəmləndiyini bildirib, möhtərəm dövlət başçımızın ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatına, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıran nazir şəxsi heyətin ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla qeyd edib.

O, eyni zamanda bildirib ki, torpaqlarımızın 20 faizi işğal altında olduğuna görə hazırda ölkəmiz müharibə şəraitindədir. Ona görə də Daxili Qoşunların şəxsi heyəti öz üzərlərinə düşən xidməti vəzifələri ilə bərabər həm də torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüzün bərpası üçün hər an hazır olmalı, döyüş hazırlığı səviyyələrini daim yüksək saxlamalıdırlar.

Şəxsi heyətə konkret tapşırıq və tövsiyələrini verən Daxili İşlər naziri hərbi qulluqçuların qanunvericiliklə müəyyən edilmiş vəzifələrin və verilən tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcəklərinə, xalqa, dövlətə və Prezidentə sədaqətlə xidmət edəcəklərinə əminliyini ifadə edib, xidmətdə fərqlənən hərbi qulluqçuların mükafatlandırılması ilə bağlı müvafiq göstəriş verib.

Sonra Daxili İşlər naziri V.Eyvazovun rəhbərliyi ilə hərbi hissənin qərargahında komandir heyəti ilə əməliyyat müşavirəsi keçirilib.

Tədbirin sonunda general-polkovnik V.Eyvazov hərbi hissənin əsgər yeməkxanasında şəxsi heyətlə birlikdə nahar edib.




# Lerikdə "Relaks" İstirahət Mərkəzində dövlət orqanlarına "meydan oxuma" hərəkətlərinə rəsmi qiymət verildi... Həbslər aparıldı...

**Azərbaycan Respublikasının Vergilər, Daxili İşlər nazirlikləri və Baş Prokurorluğun mətbuat xidmətlərinin birgə məlumatına görə, son dövrlər vergi yoxlamalarının ümumi sayının azalmasına baxmayaraq, Vergilər Nazirliyi vergidənyayınma ehtimalı yüksək olan hallarda vergi nəzarəti tədbirləri həyata keçirir.**

Növbəti belə tədbirin Lerik rayonunda fəaliyyət göstərən "Relaks" istirahət və turizm mərkəzində cari il avqustun 16-da keçirilməsi planlaşdırılıb. Nəzarət tədbirinin həyata keçirilməsinə istirahət mərkəzindən dövlət büdcəsinə ödənilən vergilərin kəskin şəkildə azalması səbəb olub. Belə ki, faktiki sahəsi 14 hektardan çox olan və qonaqların qalması üçün 142 nömrədən ibarət istirahət mərkəzində müxtəlif təyinatlı 20 obyektin fəaliyyət göstərməsinə baxmayaraq, 2018-ci ildə cəmi 10 min 726 manat, 2019-cu ilin ötən dövrü ərzində isə 972 manat məbləğində vergi ödənilib. Bundan başqa, "Relaks" istirahət mərkəzi, vahid idarəetmə sisteminə malik olmasına baxmayaraq, vergidənyayınma məqsədi ilə buradakı obyektlər ayrı-ayrı vergi ödəyicilərinin adına rəsmiləşdirilib, bir sıra obyektlər vergi orqanında uçota alınmadan fəaliyyət göstərib.

İstirahət mərkəzində fəaliyyət göstərən vergi ödəyicilərinə vergi qanunvericiliyinin tələblərinə əməl olunmasının zəruriliyi, mövcud çatışmazlıqların və vergidənyayınma hallarının aradan qaldırılması haqqında dəfələrlə xəbərdarlıq edilsə də, buna məhəl qoyulmayıb.

Bu səbəbdən real vergi potensialının müəyyən edilməsi məqsədilə Vergilər Nazirliyinin 6 saylı Ərazi Vergilər İdarəsi tərəfindən istirahət mərkəzində fəaliyyət göstərən vergi ödəyicilərinə məxsus obyektlərdə xronometraj və digər operativ vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi barədə qərar qəbul edilib.

Avqustun 16-da nəzarət tədbirlərini həyata keçirmək üçün təsərrüfat subyektinə gələn Vergilər Nazirliyinin əməkdaşları burada müqavimətlə üzləşib, onlara qanuni fəaliyyətini həyata keçirməsinə maneələr törədilib. Aparılmış izahat və məlumatlandırma tədbirlərinə, yoxlamanın keçirilməsi barədə müvafiq qərarların təqdim edilməsinə baxmayaraq, vergi əməkdaşlarının əraziyə daxil olmasına imkan verilməyib. Hadisə yerinə gəlmiş Lerik rayon Polis Şöbəsinin əməkdaşlarının, eləcə də Lerik rayon İcra Hakimiyyəti nümayəndələrinin də məsələyə müdaxiləsi müsbət nəticə verməyib, istirahət mərkəzinin vəzifəli şəxsləri kimi özünü təqdim etmiş şəxslər vergi əməkdaşları və polis işçilərinə hücum təşkil edərək onlara müxtəlif xəsarətlər yetirib, bundan başqa, Vergilər Nazirliyinin xidməti istifadəsində və nazirlik əməkdaşlarının şəxsi istifadələrində olan avtomaşınlara daş parçaları ilə zədələr yetiriblər.

Həmin faktla bağlı cinayət işi başlanıb, təcrübəli polis və prokurorluq əməkdaşlarından ibarət istintaq qrupu yaradılıb, eləcə də Baş Prokurorluğun, Vergilər və Daxili işlər nazirliklərinin vəzifəli şəxsləri rayona ezam olunublar.

Hadisə ilə əlaqədar Daxili İşlər Nazirliyi və Baş Prokurorluq tərəfindən vəziyyət dərhal nəzarətə götürülüb, operativ tədbirlər həyata keçirilməklə ictimai asayiş bərpa olunub, vergi əməkdaşlarının "Relaks" istirahət mərkəzində vergi nəzarəti tədbirinin keçirilməsinə zəruri şərait təmin edilib.

Cinayət işi üzrə kriminalistik texniki vasitələrdən istifadə olunmaqla hadisə yerinə foto və videoçəkiliş aparılmaqla baxış keçirilib, hadisələrin baş vermə məkanı fiksasiya olunubş, maddi sübutlar götürülüb, hadisənin şahidləri müəyyənləşdirilərək dindirilib, məhkəmə-tibbi, məhkəmə-əmtəəşünaslıq, məhkəmə-trasoloji ekspertizalar təyin edilib.

İş üzrə İstirahət Mərkəzinin təşkilati-sərəncamverici və inzibati funksiyaları yerinə yetirən vəzifəli şəxsləri - Nərimanlı Mirhəmid İqbal oğlu, Nərimanlı Orxan Çingiz oğlu, Əsgərov Pərviz Əvəzoviç, İmanov Famil Kamran oğlu, Şahverdiyev Rahim Bəhlul oğlu və Abbasov Amir Nağızadə oğlu Cinayət Məcəlləsinin 309.2 (vəzifə səlahiyyətlərini ağır nəticələrə səbəb olmaqla aşma) və 315.2-ci (hakimiyyət nümayəndələrinə həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində cinayət işi üzrə bütün xüsusatların, əməllərində cinayət tərkibi olan şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində kompleks istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Hazırda "Relaks" istirahət və turizm mərkəzində bütün obyektlər normal fəaliyyət göstərir, qonaqlar rahat şəkildə istirahət edir, eyni zamanda vergi nəzarəti tədbirləri adi rejimdə aparılır.

# Gəncə terrorunun birilliyi fonunda "radikal islamçı qruplardan biri yenidən fəallaşıb"...

## *Dünyəvi dövlət deyib bağıran bəzi müxalifləri Suriyada təlim keçmiş terrorçu Yunis Səfərova cəlb edən nədir?*

**Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov ötən il Gəncədə baş vermiş terror aktlarının ildönümü ilə bağlı KİV-lərə xüsusi açıqlama verib. Açıqlamada deyilir: -Azərbaycan dövlətçiliyinə qarşı qəsd aktı kimi dəyərləndirilən Gəncə hadisələrindən bir il ötür.**

Ötən müddətdə aparılmış istintaq tədbirləri nəticəsində ortaya çıxan faktlar bir daha təsdiqlədi ki, Gəncə hadisələri bəzi dövlətlərin radikal klerikal dairələrinin, separatçıların və ölkə daxilində siyasi fəaliyyət pərdəsi altında şəxsi ambisiyalarını həyata keçirmək istəyən qrupların dövlətə və milli maraqlarımıza qarşı birgə məkrli təxribatı idi. Mediada, xüsusən sosial mediada geniş yayılmış məlumatlardan görünür ki, həmin qüvvələrin ötən il reallaşdırmağa çalışdıqları ssenarinin puç edildiyi, vətəndaşlarımızın dövlətçiliyin keşiyində durduğunu nümayiş etdirdiyi Gəncə hadisələrinin ildönümü ilə əlaqədar üzvlərinin əksəriyyəti Azərbaycanın keçmiş vətəndaşları təşkil edən radikal islamçı qruplaşmalardan biri yenidən fəallaşıb. Qruplaşmanın sosial şəbəkələrdəki səhifə və profillərində, habelə bəzi dövlətlərin klerikal dairələri tərəfindən idarə olunan saytlarda fəallaşması birmənalı olaraq ifrat dini radikallığın, fundamentalizmin dəstəklənməsi kimi dəyərləndirilə bilər.

Dini şüarlarla pərdələnən, təxribatçı, niyyəti dövlətlə xalq arasında inamsızlıq, mümkün olarsa düşmənçilik toxumları səpmək olan bəzi internet resurslarında Gəncədə törədilmiş terror aktının əsas personajı, Rusiya vətəndaşı Yunis Səfərovun Suriyada döyüşlərdə iştirakını təsdiqləyən kadrlar nümayiş etdirilir və onu əsl "qəhrəman" kimi populyarlaşdırmağa cəhdlər olunur, xanımının hadisədən dərhal sonra etdiyi müraciət təkrar-təkrar yayımlanır. Təəssüf doğuran odur ki, özlərinin demokrat və dünyəvi dövlət tərəfdarı olduqlarını iddia edən bəzi müxalifət liderləri və fəalları da terroru təşviq edən belə bir kampaniyaya dəstək verir, ifrat ekstremizmi özünə ideologiya seçmiş xarici qruplaşmaların istifadə etdiyi şüarları təkrarlayır, bu səpkidə çağırışlar səsləndirir, ölkəmizin çoxəsrlik dini dözümlülük mühitini, tolerant imicini şübhə altına alırlar.

Bir sözlə, demokratiya dəyərlərinə sadiq olduğunu iddia edən bu tipli müxalifətin əslində həmin dəyərlərə qənim kəsilənləri, radikalizmi, ifrat dini fundamentalizmi dəstəklədiyi göz önündədir. Belə olan halda həmin müxalifətə, görəsən, hansı Azərbaycan gərəkdir? Dünyanın inkişaf etmiş ölkələri sırasında yer alan, sabit, qüdrətli və demokratik Azərbaycan, yoxsa Sudan, Somali, Liviya, Suriya və s. ölkələr kimi amansız daxili savaşın, qanlı xaosun, faciəvi vətəndaş qarşıdurmasının və terror qruplaşmalarının tüğyan etdiyi poliqon? Bəlkə onlar Azərbaycanı orta əsrlərin qaranlıq dövrünə qaytarmaq, ölkəmizi şəriət qanunları ilə idarə olunan məkana çevirmək istəyirlər?...

Ötən il iyul ayının 3-də axşam Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı sui-qəsd törədən birinin cinayətinin terror xarakteri, cinayəti törədənin xarici vətəndaş olduğu, Azərbaycan dövləti tərəfindən sanksiyalaşdırılmayan döyüş əməliyyatlarında iştirak etdiyi məlumdur. Yerli və xarici mediada dərc olunmuş materiallarda Y.Səfərovun həyat yoldaşının bir neçə dəfə yayımlanmış videomüraciətlərində onun bu əməli şəxsi motivlərlə, qisas naminə və ya bəzilərinin iddia etdiyi kimi, "sosial zülmə" qarşı etiraz olaraq deyil, məhz xaricdə qanunsuz silahlı birləşmələrin tərkibində döyüşdüyü "ideallar" naminə, yəni Azərbaycanda "şəriət dövləti yaratmaq" üçün törətdiyi də bəlli olub.



Gəncədə terakt baş verəndən dərhal sonra radikal dini fundamentalizmi təbliğ edən Facebook səhifələri və saytlar, habelə Vətənə xəyanət ittihamı ilə mühakimə edilmiş separatçılarla bağlı kütləvi informasiya vasitələri Yunis Səfərovu yeni "Gəncəbasar qisasçısı", "qəhrəman" elan etməyə tələsdilər. Bu dəfə də onlara Avropadakı anti-Azərbaycan müxalifəti və onların rəhbərlik etdiyi internet kanallarından, orada yaşayan antimilli ünsürlərdən kömək gəldi. Rusiya və digər xarici ölkələrdə separatçı kimi "ad-san qazanmış" çevrələr də cinayətkarın müdafiə komitəsini yaradıb xarici dövlət rəsmilərinə müraciət etdilər.

Xatırladım ki, bu teraktdan bir ay əvvəl, 2018-ci il mayın 28-də ABŞ-ın nüfuzlu "Foreign Policy" nəşri "Gəncə keçidi"nin Qərb üçün əhəmiyyəti haqqında yazı dərc edərək, baş verəcək təxribatlar haqqında xəbərdarlıq edirdi. Bu gün terroru təbliğ edən radikalların və onların havadarlarının yenidən fəallaşması, Azərbaycana təhdidlər ünvanlamaları isə Gəncə hadisələrinin ildönümü ilə yanaşı, TANAP-ın istifadəyə veriləcəyi vaxta təsadüf edir. Qəribə deyil ki, Azərbaycan dövləti və onun müstəqil siyasətinin əleyhinə son dövrlərdə Ermənistan, bəzi dövlətlərdəki klerikal dairələr, ekstremistlər, xarici ölkələrə qaçmış, sadəcə, pula və məişət rahatlığının təminatına can atan bəzi azərbaycanlılar tərəfindən aparılan təmərküzləşmiş, təhlükəli ideoloji təxribat bu günlərdə yenidən canlanıb.

Demokrat və dünyəvi olduqlarını vurğulayanlar mövqe və demokrat prinsipiallığı nümayiş etdirərək, bu tipli anti-Azərbaycan dairələrini və onların ölkəmizdəki uzantılarını qınamaq əvəzinə, terror aktlarına görə həbs olunmuş şəxsləri qəhrəmanlaşdırır, merkantil maraqların təminatı, yeni maliyyə imkanları əldə etmək naminə onları vicdan məhbusu elan edərək xüsusi siyahılara salır, azadlığa buraxılmalarına çalışırlar. Yaxın Şərq və Şimali Afrikada son illərdə baş verən proseslər göstərdi ki, hər hansı cəmiyyətdə özünü "müxalifət" adlandıran qrup və kəsimlər terrorçunu, yaxud terrorçuları qəhrəman kimi təqdim etməyə, terroru mifləşdirməyə başladıqda cəmiyyət və dövlət belə təhlükəli fəsada qanun çərçivəsində sərt reaksiya verməzsə, hadisələr təhlükəli məcraya yönəlir, ideoloji təxribat vətəndaş müharibəsi, terrorun tüğyan etməsi ilə nəticələnir.

Dövlətin təhlükəsizliyi və milli mənafelər heç bir zaman, heç bir vəchlə və ya şərtlə müzakirə mövzularına çevrilməməlidir. Bəhs etdiyim dəyərlərə kiçik də olsa, təhdid yaranarsa, hər bir azərbaycanlı vətəndaş mövqeyi, milli iradə ortaya qoymalıdır. Mövcud həssas vəziyyətdə cəmiyyətimiz qətiyyət və sayıqlıq, vətəndaşlarımız milli dövlətçilik naminə sıx birlik nümayiş etdirməlidir. İctimai rəyə təsir imkanları olan ziyalılarımız daha düşünülmüş şəkildə və həssas davranaraq, konkret insanlara bəslənən münasibətlə Vətənin mənafeləri və dövlətin maraqlarını bir-birindən fərqləndirməlidir.

# Buraxılış ərəfəsində olan TANAP "Gəncə 1 il" fonunda fəallaşan radikal islamçı qrupun hədəfində...

**Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov ötən il Gəncədə baş vermiş terror aktlarının ildönümü ilə bağlı KİV-ə xüsusi açıqlama verib. Açıqlamada cənab Əli Həsənov bir sıra məqamlara toxunub: "Azərbaycan dövlətçiliyinə qarşı qəsd aktı kimi dəyərləndirilən Gəncə hadisələrindən bir il ötür.**




***Fikrət Sadıqov:** "Sözügedən radikal qruplaşmaların yenidən fəallaşmasını TANAP-la əlaqələndirmək olar"*

Ötən müddətdə aparılmış istintaq tədbirləri nəticəsində ortaya çıxan faktlar bir daha təsdiqlədi ki, Gəncə hadisələri bəzi dövlətlərin radikal klerikal dairələrinin, separatçıların və ölkə daxilində siyasi fəaliyyət pərdəsi altında şəxsi ambisiyalarını həyata keçirmək istəyən qrupların dövlətə və milli maraqlarımıza qarşı birgə məkrli təxribatı idi. Mediada, xüsusən sosial mediada geniş yayılmış məlumatlardan görünür ki, həmin qüvvələrin ötən il reallaşdırmağa çalışdıqları ssenarinin puç edildiyi, vətəndaşlarımızın dövlətçiliyin keşiyində durduğunu nümayiş etdirdiyi Gəncə hadisələrinin ildönümü ilə əlaqədar üzvlərinin əksəriyyətini Azərbaycanın keçmiş vətəndaşları təşkil edən radikal islamçı qruplaşmalardan biri yenidən fəallaşıb".

Bununla yanaşı, Əli Həsənov açıqlamasında son dərəcə vacib məqama toxunub: "Bu gün terroru təbliğ edən radikalların və onların havadarlarının yenidən fəallaşması, Azərbaycana təhdidlər ünvanlamaları isə Gəncə hadisələrinin ildönümü ilə yanaşı, TANAP-ın istifadəyə veriləcəyi vaxta təsadüf edir. Qəribə deyil ki, Azərbaycan dövləti və onun müstəqil siyasətinin əleyhinə son dövrlərdə Ermənistan, bəzi dövlətlərdəki klerikal dairələr, ekstremistlər, xarici ölkələrə qaçmış, sadəcə, pula və məişət rahatlığının təminatına can atan bəzi azərbaycanlılar tərəfindən aparılan təmərküzləşmiş, təhlükəli ideoloji təxribat bu günlərdə yenidən canlanıb".

*"Azərbaycan güclü dövlət olduğuna görə bu kimi cəhdlər heç bir nəticə verməyəcək"*

Bütün bu deyilənlərin fonunda, ehtimal etmək olarmı ki, fəallaşan radikal islamçı qruplar TANAP-ı hədəf götürürlər?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqov bunu istisna etmədi: "Sözügedən radikal qruplaşmaların yenidən fəallaşmasını TANAP-la əlaqələndirmək olar. Çünki adətən bu kimi fəallaşmalar təsadüfi olmur. Bu minvalla istəyirlər ki, hansısa vacib açılışı, tədbiri əngəlləsinlər. Bu, bir növ, terrorçu fəaliyyətlə məşğul olan qruplaşmaların daxilindən gələn siyasi addımlardır. Onlar böyük hadisələr, açılışlar, sammitlər ərəfəsində xüsusu fəallıq göstərirlər. Ona görə də bu ehtimal kifayət qədər reallığa söykənir. Bununla onlar həm də ona görə fəallaşırlar ki, öz varlıqlarını sübut etsinlər.

Belə hadisələrlə özlərini yenidən gündəmə gətirmək istəyirlər. Reallıq ondan ibarətdir ki, zaman-zaman müəyyən dairələr Azərbaycanın əldə etdiyi böyük iqtisadi uğurlardan narahat olublar. Hər vasitə ilə çalışırlar ki, buna mane olsunlar. Çünki bu qüvvələr Azərbaycanın uğurlarını həzm edə bilmirlər. Ancaq Azərbaycan güclü dövlət olduğuna görə bu kimi cəhdlər heç bir nəticə verməyəcək".

***Vidadi ORDAHALLI***

# "Facebook" üzərindən videoyayım aparan mühacir azərbaycanlılara pul yığımında ermənilər də fəal iştirak edir

**Bəllidir ki, sosial şəbəkələrin yaratdığı geniş imkanlardan bəzi dələduzlar və işbazlar məharətlə istifadə edirlər. Onlar bu yolla özlərinə yaxşı pul da toplayırlar. Öz təsirləri altına saldıqları şəxslərin incə damarlarını tutmaqla, əslində, mənfəətlərindən başqa heç nəyi fikirləşmirlər.**




***Samir Adıgözəlli:** "Məlum olur ki, o adamlar elə Azərbaycanda da peşəkar dələduz olublar"*

Belələrinin sırasında xaricə müxalifətçi adı ilə sığınan söyüşcül şəxslər də az deyil. Onlar guya inqilaba çağırış etməklə, "xalqı ağ günə çıxaracaqlarına" dair şirin vədlər verməklə, həm də həmin təbliğatın fonunda əl açıb insanlardan pul dilənirlər. Bunu da onunla əsaslandırırlar ki, guya yaratdıqları "televiziyalar" xalqa xidmət edir və bu məsrəfləri qarşılamaq üçün onlara külli miqdarda vəsait gərəkdir. Əslində isə internetə qoşulmaqla sosial şəbəkələr üzərindən həmin yayımları etmək mümkündür. Və bu elə də vəsait tələb etmir. Hiss olunur ki, torlarına çoxlu sayda adam sala bilirlər. İanə adı ilə onlara vəsaitin daxil olduğunu etiraf edirlər. Ancaq heç də daxil olan bütün vəsaitlər barədə ətraflı və şəffaf məlumat vermirlər. Belə fikirlər səslənir ki, həmin videoyayımları edənlərin özlərinə də qarmaq atan və onları Azərbaycanın dövləti maraqlarının əleyhinə işlədənlər də az deyil. Bildirilir ki, bu cür adamlara ianə verənlərin arasında erməni millətindən olan şəxslər də fəal iştirak edirlər. Bu da təsadüfi sayıla bilməz. Ermənilərin söyüşcül radikallara maliyyə verməklə hansı maraqları ola bilər?

İctimai Siyasi Proseslər və Beynəlxalq Əlaqələr Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ermənilərin bu cür tipajlara maliyyə ödəməkdə maraqlı olması təbii sayıla bilər: "Bilirsiniz ki, həmin adamlar hazırda sığındıqları ölkələrin ictimai-siyasi həyatında yaxından iştirak etmirlər. İşləri-gücləri ancaq bura barədə hədyan yağdırmaq, söyüş söyməkdir. İzləsəniz görərsiniz ki, həmin adamlar guya Azərbaycanda payızda nəyinsə olacağına dair təbliğat aparırlar. Təbii ki, hamısı utopiyadır. Amma bütün çağırışlarının motivində itaətsizlik, hakimiyyətə qarşı zor tətbiqetmə var. Bu da ermənilərin işinə yarayır. Çünki Azərbaycanda qarışıqlığın olmasını onlardan çox istəyən, arzulayan yoxdur. Söyüş ixrac edən adamlara ermənilərin göstərdiyi diqqət bununla əlaqəlidir. Bu adamlar Azərbaycandan başqa hamının maraqlarına qulluq etmələrinin fərqindədirlər. Sadəcə, vəziyyət onlara sərf edir. İanə marafonu elan edirlər, amma ora yığılan vəsait barədə heç bir məlumat vermirlər. Çünki onlara sərf etmir. Belə işlərlə məşğul olanların kimliyini araşdırdıqda ortaya qəribə mənzərə çıxır. Məlum olur ki, o adamlar elə Azərbaycanda da peşəkar dələduz olublar. İndi də siyasi müstəvidə dələduzluqlarını davam etdirirlər. Pul qazanmaqdan ötrü hətta erməni ilə də işbirliyinə gedirlər.

*"Pul qazanmaqdan ötrü hətta erməni ilə də işbirliyinə gedirlər"*

**Artıq bu onlar üçün adi hala çevrilib. Soydaşlarımız bu istiqamətdə fəal olmalıdırlar. O cür avantüristlərin, ermənidən belə maliyyə alanların təbliğatına uymamalıdırlar. Elə onların yayımlarının altında rəylərini yazmalıdırlar. Bu cür xainlərin bütün iç üzünü açıb göstərməyin vaxtı çoxdan çatıb".**

***Məhəmmədəli QƏRİBLİ***

**Dövlətimizi hədəfə alan qara qüvvələrin niyyətləri dövlətçiliyimizə qəsd etmək, onun müstəqilliyini boğmaqdır. İndiyə qədər Azərbaycan dövləti və xalqı çox ağır imtahanlardan keçib. Keçən ilin yayında Gəncədə baş verən qanlı olay da bu hadisələrdən biridir. Azərbaycan dövlətçiliyinə qarşı qəsd aktı kimi dəyərləndirilən Gəncə hadisələrindən bir il ötür.**

# Gəncə terrorundan sonra bir il - "Şiə dövləti qurmaq" planları sübut edildi

## Qabil Hüseynli: "Gəncə hadisəsi göstərdi ki, ölkəmizə, dövlət müstəqilliyimizə qarşı kənardan yönləndirilən sui-qəsdlər hələ dayanmayıb"



Məlum olduğu kimi, Gəncədə baş verən hadisələr dövlətə və dövlətçiliyə qarşı atılan addım idi və bu addımı atanlar layiqli cəzalarını aldılar. Gəncə hadisələrinin Azərbaycan dövlətini istəməyən qara qüvvələr tərəfindən törədildiyi sirr deyil. Qeyd edək ki, hadisə baş verən zaman yerli politoloqlar olayla bağlı diqqətçəkən açıqlamalar verirdilər. Azərbaycanın ikinci böyük şəhərində yaşanan bu acı olayın dini ekstremist qüvvələr tərəfindən törədildiyi də istisna edilmirdi. Burada xarici dövlətlərin xüsusi xidmət orqanları və düşmən şəxslərin də rolunun az olmadığı məlumdur.

Qeyd edək ki, keçən ilin iyul ayında 150-200 nəfərdən ibarət radikal dini yönümlü bir qrup şəxs Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının önündəki meydana toplaşaraq asayişi kobud şəkildə pozmağa cəhd göstərmişdi. Qanunsuz hərəkətlərin qarşısı alınarkən xidməti vəzifələrini yerinə yetirən iki polis zabiti - Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki İlqar Balakişiyev və Nizami Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Səməd Abbasov radikal ünsürlərin kəsici-deşici alətlərlə yetirdikləri zərbələr nəticəsində şəhid oldular.

Bildiyimiz kimi, hadisənin baş verdiyi bir il müddətində olayı törədən şəxslər həbs edilib, istintaqı başa çatanlarla bağlı həbs-qətimkan tədbirləri seçilib.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov ötən il Gəncədə baş vermiş terror aktlarının ildönümü ilə bağlı KİV-ə xüsusi açıqlama verib. Açıqlamada Gəncə hadisələrinin baş verməsinin əsl səbəbləri göstərilib.

Ə.Həsənov qeyd edir ki, ötən il iyul ayının 3-də axşam Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı sui-qəsd törədən birinin cinayətinin terror xarakteri, cinayəti törədənin xarici vətəndaş olduğu, Azərbaycan dövləti tərəfindən sanksiyalaşdırılmayan döyüş əməliyyatlarında iştirak etdiyi məlumdur. "Yerli və xarici mediada dərc olunmuş materiallarda Y.Səfərovun həyat yoldaşının bir neçə dəfə yayımlanmış videomüraciətlərində onun bu əməli şəxsi motivlərlə, qisas naminə və ya bəzilərinin iddia etdiyi kimi, "sosial zülmə" qarşı etiraz olaraq deyil, məhz xaricdə qanunsuz silahlı birləşmələrin tərkibində döyüşdüyü "ideallar" naminə, yəni Azərbaycanda "şəriət dövləti yaratmaq" üçün törətdiyi də bəlli olub.

Gəncədə terakt baş verəndən dərhal sonra radikal dini fundamentalizmi təbliğ edən "Facebook" səhifələri və saytlar, habelə Vətənə xəyanət ittihamı ilə mühakimə edilmiş separatçılarla bağlı kütləvi informasiya vasitələri Yunis Səfərovu yeni "Gəncəbasar qisasçısı", "qəhrəman" elan etməyə təlesdilər. Bu dəfə də onlara Avropadakı anti-Azərbaycan müxalifəti və onların rəhbərlik etdiyi internet kanallarından, orada yaşayan antimilli ünsürlərdən kömək gəldi. Rusiya və digər xarici ölkələrdə separatçı kimi "ad-san qazanmış" çevrələr də cinayətkarın müdafiə komitəsini yaradıb xarici dövlət rəsmilərinə müraciət etdilər" - deyə Ə.Həsənov qeyd edir.

*"Hüquq-mühafizə orqanları tərəfindən bu qara qüvvələrin əməlləri vaxtında ifşa edilərək onların fəaliyyəti yerindəcə lokallaşdırıldı"*

Gəncə hadisələrindən ötən bir il ərzində baş verənləri şərh edən politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, hadisəni törədənlər layiqli cəzalarını aldılar. "Əlbəttə, Gəncə hadisəsi göstərdi ki, ölkəmizə, dövlət müstəqilliyimizə qarşı kənardan yönləndirilən sui-qəsdlər hələ dayanmayıb, bəzi vətəndaşlarımız isə həmin qüvvələrin əlində alət olmaqda davam edirlər. Gəncə hadisələri də Azərbaycanı içərisindən silkələmək məqsədilə törədilən bir sui-qəsd hadisəsi idi. Şükürlər olsun ki, bu sui-qəsd hadisəsi də Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən cəsarətlə və vaxtında zərərsizləşdirildi. Bir çox şəxslər hüquqi məsuliyyət daşıdıqları üçün həbs edildilər, onların əməlləri ilə bağlı istintaq aparıldı.

Bu cinayətkar şəxslərin bir çoxunun istintaqı yekunlaşaraq böyük əksəriyyətinə həbs cəzası kəsildi. Bütün bunlar onu göstərir ki, prosesin baş verməsində dini yönümlü, bizimlə qonşu olan ölkədə təlim keçmiş, hətta Suriya ərazisinə qədər gedib çıxmış insanların rolu var. Bu insanlar bizimlə qonşu olan dini dövlətdən aldıqları təlimat əsasında hərəkət edərək Azərbaycan dövlətçiliyinə qarşı bu cür xəyanətkar addım atdılar. Hüquq-mühafizə orqanları tərəfindən bu qara qüvvələrin əməlləri vaxtında ifşa edilərək onların fəaliyyəti yerindəcə lokallaşdırıldı və qarşısı alındı" - deyə Q.Hüseynli vurğuladı.

***İradə SARIYEVA***

---

**Rusiya Prezidenti Vladimir Putinin oktyabrın 1-də İrəvana nəzərdə tutulan səfəri ilə bağlı erməni mediası fərqli mülahizələr irəli sürməyə başlayıb. Onlar iddia edirlər ki, Putinin Avrasiya İqtisadi İttifaqının sammitində iştirak etmək üçün İrəvana gəlişi çərçivəsində hazırda həbsdə saxlanan eks-prezident Robert Köçəryanla bağlı hansısa addımalr atıla bilər.**

# Oktyabrın 1-də Putin erməniləri indidən qurduqları plana görə məyus edə bilər

## Hatəm Cabbarlı: "Rusiya heç vaxt belə diletant addım atmaz"



Bəllidir ki, Rusiya Köçəryanın həbsdə qalmasını istəmir. Hətta rəsmi səviyyədə belə buna etiraz edib. Lavrov "keçmiş rəhbərləri təqib etmək məqsədəuyğun deyil" məzmunlu bəyanat versə də, Paşinyan Köçəryanı hələ də həbsdə saxlayır. Köçəryanın ad gününü həbsxanada təbrik edən Putinin İrəvana gələn kimi Köçəryanla görüşmək istədiyi barədə erməni mətbuatı geniş müzakirələr açıb. Putin həbsxanaya gedib görüşəcək, yoxsa Köçəryan azadlığa buraxılacaq? Bu xüsusda səslənən iddialar sırasında "Rusiya Prezidentinin İrəvana gəlişi Köçəryanın azad edilməsi ilə də nəticələnə bilər" kimi fikirlər də var. Hətta qeyd edilir ki, Köçəryan azad olunmasa, ola bilsin ki, Putin İrəvan səfərindən imtina etsin. Təbii ki, bütün bunlar ermənilərin özləri üçün qurduqları fərziyyələrdir. Bəs, əslində, vəziyyət necə ola bilər və səslənən iddiaların mümkünlüyü barədə ekspertlər nə düşünürlər?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə bildirdi ki, Putinin doğrudan da oktyabrın 1-də Ermənistana səfər edəcəyi gözlənir: "Ermənistanda hakimiyyətə yaxın olan media bu səfər barədə geniş məlumat verir və bu yöndə müxtəlif mülahizələr irəli sürülür.Həmin xəbərlərdə iddia olunur ki, iki ölkə arasında siyasi, iqtisadi və təhlükəsizlik məsələləri ilə bağlı müzakirələrin aparılacağı gözlənir. Bəzi informasiya agentlikləri isə idda edirlər ki, guya Putinin səfəri zamanı onun həbsdə saxlanan Robert Köçəryanla görüşə biləcəyi ehtimalı da irəli sürülür. Bu xəbərin tirajlanması belə tragikomik hadisədir. Rusiya kimi bir dövlətin başçısının Ermənistanın özünə səfər etməsi belə böyük hadisə sayıla bilər. İndiyə kimi belə hadisə olmayıb ki, hansısa prezident rəsmi səfəri çərçivəsində gedib türmədə saxlanan hansısa şəxslə görüşsün. Özü də söhbət indiki rejimə qarşı müxalif olan şəxsdən gedirsə. Bu baxımdan da yayılan xəbəri ciddiyə almaq lazım deyil. Hətta Putinin belə niyyəti olarsa belə, bu, birbaşa Ermənistanın daxili siyasətinə müdaxilədir. Eyni zamanda, Ermənistanın hüquqi sisteminin heçiqətən iflas etdiyini təsdiqləmiş olar. Rusiya ciddi dövlətdir. Belə hallarla bağlı necə davranmanın yollarını bilir. Heç vaxt əlavə söhbətlərin yaranmasına rəvac verməz. Rusiya öz adamlarını bu şəkildə pis vəziyyətə də qoymaz. Köçəryanın azad olunması, hətta hakimiyyətə gətirilməsi istiqamətində bütün mümkün variantlardan istifadə edə bilər. Ancaq heç vaxt belə diletant addım atmaz. Bu, daha çox Paşinyana qarşı müxalif sayılan Köçəryan tərəfdarlarının gündəmə gətirdiyi bir dezinformasiya ola bilər. Putinin gəlişinə kimi Köçəryanın azadlığa çıxa bilmə perspektivi də yoxdur. Hətta bu mümkün olsa belə, yenə də Putinin onunla görüşə biləcəyi inandırıcı sayılmır. Çünki ölkə başçılarının rəsmi səfərləri daha çox protokol xarakterli olur".

*"Bu, daha çox Paşinyana qarşı müxalif sayılan Köçəryan tərəfdarlarının gündəmə gətirdiyi bir dezinformasiya ola bilər"*

***Məhəmmədəli QƏRİBLİ***

**Son iki gündür Lerikdəki "Relax" istirahət mərkəzində baş verən insidentlə bağlı məlumatlar sosial şəbəkələrin başlıca müzakirə mövzusuna çevrilib. İlkin olaraq sosial şəbəkələrdə bir video paylaşıldı. Həmin videodan görünürdü ki, istirahət mərkəzində öz qanuni fəaliyyətlərini həyata keçirmək istəyən Vergilər Nazirliyi əməkdaşlarına müqavimət göstərilib. Hadisə yerinə hüquq-mühafizə orqanlarının əməkdaşları çağırılıb.**

# Bir ildə cəmi 10 min manat vergi ödəmiş deputatın böyük istirahət mərkəzində həbslər aparıldı...

***Deputat İqbal Məmmədov:** "Relax"sın təsisçisi və rəhbəri qardaşım Çingiz Məmmədovdur"*

Buna baxmayaraq, dövlət qurumunun nümayəndələrinin vəzifələrini icra etməsinə imkan verilməyib və qarşıdurma yaranıb.

Bəzi KİV ilkin məlumat olaraq xəbər yaydı ki, Vergilər, Daxili İşlər nazirlikləri və prokurorluq orqanlarının birgə həyata keçirdiyi tədbirlər nəticəsində istirahət mərkəzinin rəhbəri, deputat İqbal Məmmədovun oğlu Mirhəmid Nərimanlı da daxil olmaqla 6 nəfər tutulub. Həmin xəbərdə bildirilirdi ki, Mirhəmid Nərimanlı, onun yaxın qohumları Orxan Nərimanlı, Pərviz Əsgərov, Famil İmanov, Rəhim Şahverdiyev və Amil Abbasov DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanılırlar. Lakin həmin məlumatlar sosial şəbəkələrdə millət vəkilinə yaxın olan şəxslər tərəfindən durmadan təkzib olunurdu. Avqustun 19-u günün ikinci yarısında isə bir neçə rəsmi qurum yaydıqları bəyanatla millət vəkilinin oğlunun və onunla bərabər bir neçə şəxsin saxlandığını təsdiqləmiş oldular.

Azərbaycan Respublikasının Vergilər, Daxili İşlər nazirlikləri və Baş Prokurorluğun mətbuat xidmətlərinin yaydığı birgə məlumatda qeyd edilir ki, son dövrlər vergi yoxlamalarının ümumi sayının azalmasına baxmayaraq, Vergilər Nazirliyi vergidən yayınma ehtimalı yüksək olan hallarda vergi nəzarəti tədbirləri həyata keçirir.

Növbəti belə tədbirin Lerik rayonunda fəaliyyət göstərən "Relaks" istirahət və turizm mərkəzində cari il avqustun 16-da keçirilməsi planlaşdırılıb. Nəzarət tədbirinin həyata keçirilməsinə istirahət mərkəzindən dövlət büdcəsinə ödənilən vergilərin kəskin şəkildə azalması səbəb olub. Belə ki, faktiki sahəsi 14 hektardan çox olan və qonaqların qalması üçün 142 nömrədən ibarət istirahət mərkəzində müxtəlif təyinatlı 20 obyektin fəaliyyət göstərməsinə baxmayaraq, 2018-ci ildə cəmi 10 min 726 manat, 2019-cu ilin ötən dövrü ərzində isə 972 manat məbləğində vergi ödənilib. Bundan başqa, "Relaks" istirahət mərkəzi vahid idarəetmə sisteminə malik olmasına baxmayaraq, vergidən yayınma məqsədilə buradakı obyektlər ayrı-ayrı vergi ödəyicilərinin adına rəsmiləşdirilmiş, bir sıra obyektlər vergi orqanında uçota alınmadan fəaliyyət göstəriblər.

İstirahət mərkəzində fəaliyyət göstərən vergi ödəyicilərinə vergi qanunvericiliyinin tələblərinə əməl olunmasının zəruriliyi, mövcud çatışmazlıqların və vergidən yayınma hallarının aradan qaldırılması haqqında dəfələrlə xəbərdarlıq edilsə də, buna məhəl qoyulmayıb.








Bu səbəbdən real vergi potensialının müəyyən edilməsi məqsədilə Vergilər Nazirliyinin 6 saylı Ərazi Vergilər İdarəsi tərəfindən istirahət mərkəzində fəaliyyət göstərən vergi ödəyicilərinə məxsus obyektlərdə xronometraj və digər operativ vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi barədə qərar qəbul edilib.

Avqustun 16-da nəzarət tədbirlərini həyata keçirmək üçün təsərrüfat subyektinə gələn Vergilər Nazirliyinin əməkdaşları burada müqavimətlə üzləşmiş, onların qanuni fəaliyyətini həyata keçirməsinə maneələr törədilib. Aparılmış izahat və məlumatlandırma tədbirlərinə, yoxlamanın keçirilməsi barədə müvafiq qərarların təqdim edilməsinə baxmayaraq, vergi əməkdaşlarının əraziyə daxil olmasına imkan verilməyib. Hadisə yerinə gəlmiş Lerik Rayon Polis Şöbəsinin əməkdaşlarının, eləcə də Lerik Rayon İcra Hakimiyyəti nümayəndələrinin də məsələyə müdaxiləsi müsbət nəticə verməmiş, istirahət mərkəzinin vəzifəli şəxsləri kimi özünü təqdim etmiş şəxslər vergi əməkdaşları və polis işçilərinə hücum təşkil edərək onlara müxtəlif xəsarətlər yetirmiş, bundan başqa, Vergilər Nazirliyinin xidməti istifadəsində və nazirlik əməkdaşlarının şəxsi istifadələrində olan avtomaşınlara daş parçaları ilə zədələr yetirmişlər.

Həmin faktla bağlı cinayət işi başlanmış, təcrübəli polis və prokurorluq əməkdaşlarından ibarət istintaq qrupu yaradılmış, eləcə də Baş Prokurorluğun, Vergilər və Daxili İşlər nazirliklərinin vəzifəli şəxsləri rayona ezam olunmuşlar.

Hadisə ilə əlaqədar Daxili İşlər Nazirliyi və Baş Prokurorluq tərəfindən vəziyyət dərhal nəzarətə götürülmüş, operativ tədbirlər həyata keçirilməklə ictimai asayiş bərpa olunmuş, vergi əməkdaşlarının "Relaks" istirahət mərkəzində vergi nəzarəti tədbirinin keçirilməsinə zəruri şərait təmin edilib.

Cinayət işi üzrə kriminalistik texniki vasitələrdən istifadə olunmaqla hadisə yerinə foto və videoçəkiliş aparılmaqla baxış keçirilmiş, hadisələrin başvermə məkanı fiksasiya olunmuş, maddi sübutlar götürülmüş, hadisənin şahidləri müəyyənləşdirilərək dindirilmiş, məhkəmə-tibbi, məhkəmə-əmtəəşünaslıq, məhkəmə-trasoloji ekspertizalar təyin edilib.

İş üzrə istirahət mərkəzinin təşkilati-sərəncamverici və inzibati funksiyaları yerinə yetirən vəzifəli şəxsləri - Nərimanlı Mirhəmid İqbal oğlu, Nərimanlı Orxan Çingiz oğlu, Əsgərov Pərviz Əvəzoviç, İmanov Famil Kamran oğlu, Şahverdiyev Rahim Bəhlul oğlu və Abbasov Amir Nağızadə oğlu Cinayət Məcəlləsinin 309.2 (vəzifə səlahiyyətlərini ağır nəticələrə səbəb olmaqla aşma) və 315.2-ci (hakimiyyət nümayəndələrinə həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində cinayət işi üzrə bütün xüsusatların, əməllərində cinayət tərkibi olan şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində kompleks istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Hazırda "Relaks" istirahət və turizm mərkəzində bütün obyektlər normal fəaliyyət göstərir, qonaqlar rahat şəkildə istirahət edir, eyni zamanda, vergi nəzarəti tədbirləri adi rejimdə aparılır.

Milli Məclisin deputatı İqbal Məmmədov "Relax" İstirahət və Turizm Mərkəzində baş vermiş insidentlə əlaqədar KİV-də yayılan məlumatlara aydınlıq gətirib. O, "Trend"ə açıqlamasında bildirib ki, "Relax" İstirahət və Turizm Mərkəzinin təsisçisi və rəhbəri onun qardaşı Məmmədov Çingiz Nəriman oğludur.

"İstirahət mərkəzində baş vermiş insidentlə əlaqədar dərin təəssüf hissi keçirir və mərkəzin əməkdaşlarının hərəkətlərini qəti şəkildə pisləyirəm. Məzuniyyətdən qayıtdıqdan sonra bu barədə mənə məlumat verdilər. Vergilər Nazirliyi tərəfindən aparılan araşdırmalara köməklik məqsədilə yoxlama komissiyasına zəruri sənədlərin təqdim olunması təmin ediləcək".

Ümid edirəm ki, qanun pozuntularına yol vermiş şəxslər barəsində qanunamüvafiq qərarlar qəbul ediləcək".

**Məhəmmədəli QƏRİBLİ**

**Ölkəmizin əsas strateji müttəfiqi olan qardaş Türkiyə Yaxın Şərqdə mövqelərini sürətlə möhkəmləndirir. Bu proses indiki mərhələdə Qərbi narahat etdiyi halda, Rusiya sözügedən məsələdə Türkiyə ilə koordinasiyalı şəkildə fəaliyyət göstərməyə can atır. Ekspertlər isə hesab edir ki, Ankara Yaxın Şərq niyyətlərini uğurla reallaşdıra bilsə, bu prosesin davamlı olmasını, növbəti mərhələdə Cənubi Qafqazı, Mərkəzi Asiyanı əhatə etməsini gözləmək olar.**

# Türkiyə - Rusiya işbirliyi geosiyasi proseslərdə Azərbaycanın mövqeyi ilə əla sinxronlaşır

## *Qətərdə Türkiyənin ikinci hərbi bazası...*



Hazırda müşahidə olunan budur ki, Ankara Moskvanın yardımı ilə bu ərazilərdə mövqelərini gücləndirməyə getdikcə daha çox önəm verir. Ümumiyyətlə, Ankara ilə Moskva arasında müşahidə edilən yaxınlaşmanın geosiyasi nəticələri barədə analitiklər indi maraqlı proqnozlar verir. Bu prosesin bütövlükdə qlobal siyasətə təsir edəcəyi istisna edilmir. O cümlədən Cənubi Qafqazda da mühüm hadisələr baş verəcəyi gözlənir. Qeyd edək ki, region dövlətlərinin iki böyük ölkənin əlaqələrinin inkiaşfına münasibətləri fərqlidir. Azərbaycan əvvəlcədən Ankara ilə Moskvanı bir arada görmək istəyir, Tiflis isə hadisələrə elə də reaksiya vermir. Ermənistan tamamilə fərqli mövqedədir. İrəvan Rusiya ilə Türkiyənin münasibətlərinin normallaşmasını özünə təhlükə kimi qiymətləndirir, amma buna qarşı da heç bir addım ata bilmir. Fikirlər səslənir ki, Türkiyə ilə yaxınlaşma fonunda Kreml Ermənistanın təhlükəsizliyininin müdafiəsində ardıcıl olmaya bilər. Erməni ekspertlər hesab edirlər ki, bu, daha çox geosiyasi əhəmiyyətli Türkiyə və Azərbaycan faktoru ilə bağlıdır. O da açıq şəkildə vurğulanır ki, Ankara Yaxın Şərqdə sürətlə hədəflərinə yaxınlaşır və növbədə məhz Qafqazdır. Bunu Rusiyanın "regnum.ru" portalı da istisna etmir. Portal Türkiyənin Yaxın Şərqdə güclənmək üçün Qətərdə yeni hərbi baza açmasına da diqqət çəkərək yazır: "Ankara və Doha Qətərdə ikinci hərbi bazanın tikintisini bitirir. Türkiyənin "Hürriyet" nəşrinin xəbər verdiyi kimi, o, Türkiyənin artıq Əmirliklərdə 2015-ci ildən olan və Türkiyə quru qoşunları və HHQ bölmələrinin yerləşdiyi "Tarik bin Ziyad" bazası ilə yanaşı Dohadan güneydə yerləşəcək.

Ekspertlərin dəyərləndirməsinə görə, bu gün onların sayı üç min hərbçiyə yaxındır. Bu rəqəm bu ilin payızına nəzərdə tutulan yeni bazanın açılışından sonra beş minədək yüksələ bilər. Bu, hadisənin ixtisaslı qiyməti hesablama sistemini seçməkdən asılıdır. Fars körfəzində indiki böhran geniş mənada ABŞ və İran arasında bəzən qaynar mərhələyə keçmək qarşısında olan "tanker savaşı" deyilən qarşıdurma ilə əlaqələndirilir. Fars körfəzində dünyanın bir çox həlledici tendensiyalarının fokuslaşması baş verir. Bunlardan biri - Fars körfəzini əlyetən iqtisadi bölgələr sırasından çıxarmaq, təkcə "Şimal-Cənub" layihəsini deyil, həm də Çinin Hind okeanının şimal hissəsindən başlayaraq inteqrasiya proseslərinin transformasiyasına yönəlmiş yeni "İpək Yolu" layihəsinin ayrı-ayrı logistik yönlərini pozmaq. Hələ bu və başqa layihələrin yatırım cazibədarlığı amilindən danışmırıq.

Belə ki, Amerika-İran hərbi-siyasi qarşıdurması geniş mənada yenə də çoxmənalıdır. Buna görə də Türkiyənin Qətərdə ikinci bazasının meydana çıxması Ankaranın Vaşinqton, Paris və Londonla yanaşı bölgədə möhkəmlənmək və orada ya təhlükəsizliyin "ümumi", ya da məhəlli sistemini formalaşdırmaqda iştirak etmək səyləri kimi qavranılır. Bununla yanaşı, indi Suriya yönündə "yoxlamadan" keçən Rusiya ilə alyans Türkiyə, İran və müttəfiq Qətər üçün ən önəmli mənə qazanır, halbuki, ABŞ və NATO Fars körfəzi bölgəsində Türkiyə ilə qarşılıqlı fəaliyyətin səviyyəsini yüksəltmək niyyətində deyil.

Türkiyə İranla birgə Qətəri dəstəkləyərək şiələrin tərəfində durmaqla, şiələr və sünnilər arasındakı münaqişənin, az qala, göbəyində görünür. Nəticədə Yaxın Şərqdə güc bölgüsü o dərəcədə dəyişməyə başlayıb ki, hələ bu yaxınlarda belə bir şeyi təsəvvür etmək mümkün deyildi. Amma bax, buna diqqət yetirmək gərəkdir. Türkiyə XİN başçısı Mövlud Çavuşoğlu Türkiyənin Qətərdəki hərbi bazasından danışaraq bildirib ki, Ankara "ayrıca bir ölkənin deyil, bütün Fars körfəzi bölgəsinin təhlükəsizlik təminatı ilə məşğuldur", "biz Fars kötfəzi ölkələrini təhdid edən təhlükəni sanki bizə də qarşı yönəlmiş kimi qəbul edirik". Yəni Türkiyə bölgədə haçansa Osmanlı imperiyasına daxil olmuş ərazilərdə özünün tarixi maraqlar zonasını açıq göstərməyə başlayıb. Hətta ABŞ HHQ-lərinin ən güclü bazasının, Vaşinqtonun başçılığı altında əməliyyatların icrasına sorumlu hərbi kontingentin Mərkəzi Komandanlığı qərargahının Yaxın Şərqdə yerləşməsinə baxmayaraq. Türkiyənin "Yeni Şafak" qəzeti bununla bağlı versiya səsləndirir ki, amerikalılar "bölgəni tezliklə tərk edə bilər" və "Türkiyə öz planını gerçəkləşdirməyə başlayar". Hələlik gerçək bölgə liderliyi roluna iddiaçı iki bölgəsəl lider - İran və Türkiyə Qətər əməliyyat meydanında ümumi oyun aparır. Bu, Qətərin və yumşaq deyilsə, onun opponentlərinin öz maraqları olduğu Suriyadakı duruma tətbiqən Rusiya üçün mənalı ola bilər. İstənilən halda, ABŞ-ın mövqeyinin ikili və zəif göründüyü bir durumda Doha Türkiyə tərəfdən ciddi dəstək alıb. Bütünlükdə isə Yaxın Şərqdə tarixən formalaşmış son dərəcə çox ziddiyyətlər var. Burada müstəqil siyasət yürütməyə çalışan və ya aparan bütün ölkələrin bunu nəzərə alması lazım gəlir. Rusiya mətbuatı yazır ki, Yaxın Şərqdə proseslər istənilən şəkildə inkişaf etdyi təqdirdə Türkiyə Qafqaz və Mərkəzi Asiyada da Rusiya ilə işbirlyi nəticəsində mövqelərini gücləndirməyə can atacaq. Mərkəzi Asiyada türk dövlətləri,

Qafqazda isə Azərbaycan buna maksimal dərəcədə şərait yaratmağa çalışacaq. Qeyd edilənlərdən aydın görünür ki, Ankara ilə Moskvanın yaxınlaşması Cənubi Qafqaza da təsirsiz ötüşməyəcək. Ermənistan bundan narahat olduğundan, onun destruktiv mövqe tutmaqda davam etməsi gözlənilənir. Amma İrəvanın hansısa nəticə əldə edə bilməsi də mümkünsüz sayılır. Beləliklə, Ermənistan faktoru Rusiya-Türkiyə yaxınlaşması fonunda Cənubi Qafqazda daha zəif mövqe sahibi olacaq. Hesab edilir ki, bu gedişlə regionda ermənilərin proseslərə təsir amili ən zəif bir hala gələcək. Belə vəziyyət isə Azərbaycanın maraqlarına tam cavab verir.

***Nahid SALAYEV***

**Məlum olduğu kimi, Azərbaycan-Rusiya-İran dövlət başçılarının görüşü təxirə salınmışdı. Bu, sırf texniki səbəblərə görə baş versə də, Azərbaycanı istəməyən qüvvələr, xüsusilə də Ermənistan mövzudan öz xeyirləri üçün yararlanmağa çalışıb, müxtəlif məzmunlu dezinformasiyalar tirajlayıblar.**

***Nəzakət Məmmədova:*** *"Tədbirin təxirə salınmasının Azərbaycanla, ümumiyyətlə, əlaqəsi yoxdur"*

# Putin-Əliyev-Ruhani zirvəsinin baş tutmamasından erməni sevinci yarımçıq qaldı - Uşakovun bəyanatı...

*"Bu, erməni təbliğat maşınının növbəti ifşası sayıla bilər"*



Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov verdiyi açıqlama ilə ermənilərin sevincini tamamilə alt-üst etmiş olub. O bildirib ki, təxirə salınmış Rusiya-Azərbaycan-İran sammiti Rusiyada keçiriləcək, amma onun keçiriləcəyi yeni tarix haqqında hələlik məlumat yoxdur: "Biz təcrübi qaydalara görə onu təxirə saldıq və tərəfdaşlarımızla görüşün keçiriləcəyi yeni tarix barədə razılıq əldə etmək barədə vədləşdik, baxmayaraq ki, görüşün bizim ölkədə keçiriləcəyi aydındır".

Qeyd edək ki, avqustun 14-nə Soçidə təyin edilmiş üçtərəfli sammitin təxirə salınması texniki səbəblərdən baş verib. Bu barədə məlumatı Rusiya Prezidentinin mətbuat katibi Peskov bildirmişdi.

Xatırladaq ki, Rusiya-Azərbaycan-İran formatında danışıqlar ilk dəfə 2016-cı ilin avqustunda Bakıda keçirilib. Həmin vaxt əsas müzakirə mövzusu birgə iqtisadi layihələr və regional təhlükəsizlik məsələləri olub. Sammitin yekunlarına görə tərəflər birgə bəyannamə qəbul etmiş, üçtərəfli əməkdaşlığı inkişaf etmək niyyətlərini təsdiq etmişlər.

Rusiya-İran-Azərbaycan formatında yüksək səviyyədə növbəti görüş 1 noyabr 2017-ci il tarixində Tehranda keçirilib. Üç ölkə lideri geniş məsələlər dairəsini, o cümlədən, energetika sahəsində qarşılıqlı fəaliyyət, Suriya nizamlanması və Xəzərdə əməkdaşlıq məsələlərini müzakirə etmişlər. Həmin vaxt Rusiya Prezidenti Vladimir Putin həmkarlarını növbəti üçtərəfli sammit üçün Rusiyaya dəvət etmişdi. Yəni Soçidə keçirilməsi nəzərdə tutulan görüşün tarixi əvvəlcədən planlaşdırılmışdı. Uşakovun görüşün baş tutacağı ilə bağlı verdiyi açıqlama ermənilərin növbəti yalanlarını ifşa etmiş oldumu?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ermənilərin bu yöndə apardıqları təbliğat sırf təxribat xarakterli olmaqla yanaşı, həm də onların tam mahiyyətinə uyğun idi: "Üç ölkə prezidentinin görüşünün təxirə salınması mövcud formatın pozulması deyildi. Sadəcə, rəsmi məlumata görə, texniki səbəbdən, qeyri-rəsmi mülahizələrə görə isə Rusiyada baş verən müəyyən proseslərlə əlaqədar müvəqqəti təxirə salınma idi. Bunun Ermənistan tərəfindən xüsusi ajiotajla qarşılanması da aydındır. Bəllidir ki, onlar bizimlə həm də informasiya müharibəsi aparırlar. Baş verən istənilən hadisədən öz məqsədləri və xeyirləri üçün istifadə etməyə çalışırlar. Bu bir daha ermənilərin reallıq hisslərindən uzaq olduğunu göstərir. Tədbirin təxirə salınmasının Azərbaycanla, ümumiyyətlə, əlaqəsi yoxdur. Rusiya Azərbaycana münasibətini qətiyyən pisləşdirməyib, əksinə, əlaqələr daha da dinamik şəkildə inkişaf edir. Azərbaycanın Birinci vitse-prezidenti Prezident Putin tərəfindən ordenlə təltif olunub. Azərbaycanın müdafiə naziri Rusiyaya səfər etdi. Rusiyanın daha çox maraqlı olduğu Qarabağ məsələsində sabitlik rejiminə Azərbaycan daha çox riayət edir, bununla danışıqlar prosesinin davamlılığı təmin edilmiş olur. Ermənistan isə, əksinə, bu gün regionu alovlandıracaq müharibənin başlanması məqsədilə qızışdırıcı bəyanatlar səsləndirir. Məqsəd Rusiyanı regionda ABŞ-la üz-üzə gətirməkdir. Bu səbəbdən Rusiya ilə Azərbaycanın mövqeləri hazırda daha çox üst-üstə düşür və Rusiya Prezidentinin üçtərəfli formatdan məqsədli şəkildə imtina etməsi inandırıcı deyil və ermənilərin növbəti dezinformasiyalarından biridir. Rusiya rəsmisinin verdiyi açıqlamadan belə aydın oldu ki, yaxın zamanlarda nəzərdə tutulan görüş baş tutacaq. Bu, erməni təbliğat maşınının növbəti ifşası sayıla bilər".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Azərbaycan Dövlət Sərhəd Xidməti Ermənistanla sərhədin Qazax rayonundan keçən hissəsində sərhədçilərimizin yeni taktiki və strateji mövqelər tutduğunu, düşmənin aramsız atəşlərinə baxmayaraq, bu mövqelərdə möhkəmləndiyini açıqlayıb.**

# Sərhədçilərimizin Qazaxda mövqe irəliləyişi - danışıqlar prosesinə təsir göstərə biləcək yeni faktor...

*"Təəssüf ki, Ermənistanın bundan nəticə çıxarıb danışıqlarda konstruktiv mövqe tutmaq ehtimalı olduqca zəifdir"*



Bu haqda iki gün əvvəl KİV-də yayılmış xəbərləri DSX-nin Aparat rəhbəri, general Elçin İbrahimov da təsdiqləyib. Generalın sözlərinə görə, bu mövqelər Ermənistan ordusunun həmin istiqamətdəki döyüş postlarına və postlara gedən yollarına daha yaxşı nəzarət etməyə imkan yaradıb.

E.İbrahimov detalları açıqlamasa da, xəbərlərə görə, DSX-nin "Qazax" diviziyasının bölmələri Babakər dağı istiqamətində irəliləyiblər və habelə Ermənistan ərazisində həmin istiqamətdən keçən əsas nəqliyyat arteriyalarına da nəzarət imkanı qazanıblar.

E.İbrahimov onu da bildirib ki, ötən ilin payızında Qazax və Ağstafa rayonları ərazisində sərhəd hissəsinin DSX-nin nəzarəti altına verilməsi herbi hissələrin və Azərbaycan Müdafiə Nazirliyinin birləşmələrinin döyüş qabiliyyətinin daha da artırılmasına, yeni ehtiyat qüvvələrin yaradılmasına və şəxsi heyətin döyüş qabiliyyətinin gücləndirilməsinə yönəlmişdi. Ermənistanla sərhədin bu hissələrinin DSX-nin nəzarəti altına verildiyi andan etibarən 9 ay ərzində Qazax sərhəd diviziyası yaradılıb, onunla sərhədin bu hissəsində mövqelər möhkəmləndirilib.

O da məlumdur ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlarda pozucu mövqe sərgiləməkdə davam edir. Ötən il Ermənistanda hakimiyyətin dəyişməsi də bu yöndə vəziyyəti müsbətə doğru dəyişməyib. Əksinə, Paşinyan hakimiyyəti danışıqlarda daha destruktiv mövqe tutmaqdadır.

Bütün bu deyilənlərin fonunda maraqlıdır, Azərbaycan sərhədçilərinin Qazax istiqamətində irəliləməsi Ermənistanın Qarabağa dair real danışıqlara getməsində nə dərəcədə rol oynaya bilər?

Sözügedən məsələni baki-xeber.com-a şərh edən politoloq Nəzakət Məmmədova buna bir neçə aspektdən yanaşdı: "Sərhəd xətlərinin irəli çəkilməsi və yeni sərhəd məntəqələrinin yaradılması danışıqlarının davam etməsi təhdid altına düşüb və bu, iki ölkə arasında müharibə ehtimalını gücləndirib. Azərbaycanın müvafiq dövlət orqanları işğalçı qoşunlarla təmas xəttində və Ermənistanla dövlət sərhədində fəaliyyətlərini genişləndiriblər. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun cəbhəboyu zonada tikilən hərbi hospitalın açılışını etməsi, Azərbaycanın döyüş əzmini bir daha nümayiş etdirdi. Son günlərdə bildiyimiz kimi Paşinyanın Xankəndidəki məlum bəyanatından sonra sülh

***Nəzakət Məmmədova:*** *"DSX-nin son tədbirləri, istənilən halda, Azərbaycanın Ermənistana uğurlu demarşı sayıla bilər"*

Dövlət Sərhəd Xidmətinin Qazax rayonunda yeni məntəqələr yaratması və düşmənin strateji obyektlərini nəzarət altına alması bunu sübut edir. Təəssüf ki, Ermənistanın bundan nəticə çıxarıb danışıqlarda konstruktiv mövqe tutmaq ehtimalı olduqca zəifdir. Çünki Ermənistan rəhbərliyi əslində qızışdırıcı bəyanatlar verib Azərbaycanı müharibəyə təhrik etmək üçün addımlar atır. Bununla da müharibəyə səbəb amilini ölkəmizin üzərinə atmaq istəyirlər. Lakin Paşinyanın Qarabağı Ermənistan ərazisi elan etməsi sülh danışıqlarının davam etdirilməsi imkanlarını tükəndirir. Azərbaycana münaqişəni hərbi vasitələrlə həll etməkdən başqa alternativ qoymur. DSX-nin son tədbirləri istənilən halda Azərbaycanın Ermənistana uğurlu demarşı sayıla bilər".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanda yeni Qarabağ qarşıdurması başlanır

**"Qarabağ klanı" və Nikol Paşinyan iqtidarı arasında getdikcə dərinləşməkdə olan qarşıdurmada ön plana çıxan məqamlardan biri də Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. İndi tərəflər bir-birini Qarabağ məsələsində təslimçi və yanlış mövqe tutmaqda ittiham edir.**

Məsələn, "Qarabağ klanı"nın təmsilçilərindən sonra Ermənistan parlamentinin sabit vitse-spikeri Eduard Şarmazanov bildirir ki, Nikol Paşinyanın Qarabağ məsələsində Xankəndidə verdiyi son açıqlamalar beynəlxalq miqyasda İrəvanın əleyhinə işləyir, ölkəni təzyiq hədəfinə çevirir: "Eyni zamanda, belə vəziyyətdə məsələnin hərbi həllini Azərbaycan aktuallaşdırır və məqsədi üçün Paşinyanın xətalarından istifadə edir. Təəssüf ki, baş nazir hansı ciddi diplomatik xətalara yol verdiyinin fərqində olmaq istəmir".

Paşinyan iqtidarı isə məsələdə "Qarabağ klanı"nın yanlış mövqedə olduğunu sübut etməyə çalışır və bu xüsusda Robert Köçəryanın vəkili Ovanes Xudoyanın son açıqlamaları hakimiyyət təmsilçilərinin əlində bayraq edilib. Qeyd edək ki, Ovanes Xudoyan açıqlamasında, qismən də olsa, işğal faktını etiraf edib. "1in.am" portalı bu xüsusda yazır: "Ermənistanın ikinci prezidenti Robert Köçəryanın vəkili Ovanes Xudoyan bəyan edib ki, Qarabağın azad edilmiş əraziləri apriori, yəni öncədən məlum olduğu kimi, "DQR"in bir hissəsi sayıla bilməz, buna görə də 2008-ci ilin fevral-mart aylarında İrəvana gətirilmiş qüvvələr "DQR"in silahlı qüvvələrinin gücləri ola bilməz. Vəkil belə bəyanatı, təbii, Köçəryanın razılığı olmadan verə bilməz. Buna görə, biz inamla təsdiq edirik ki, ikinci prezident "Rubikon"u keçib, başqa sözlə, elə bir vəziyyətə gəlib ki, artıq milli təhlükəsizliyi təhdid edən bəyanatlarla çıxış edir.

Bənzər bəyanatları, məsələn, dövri olaraq Bakıdan eşitmək olar. Xudoyan azad edilmiş əraziləri "DQR"in bir hissəsi hesab etmirsə, apriori ehtimal edə bilərik ki, Köçəryan onları işğal edilmiş ərazilər kimi xarakterizə edir. Zamanında bunu onun çevrəsindəki görkəmli adamlardan biri, sabiq xarici işlər naziri Vardan Oskanyan parlamentdə deputatlardan birinin sualına cavab verərkən etmişdi. Robert Köçəryanın vəkilinin bəyanatı siyasi baxımdan öz dərisini qorumağın təhlükəli əlamətidir. Dar şəxsi məqsədlər naminə "DQR"in suverenliyinə və subyektliyinə bundan güclü zərbə vurmaq mümkün deyildi. Köçəryan özünün prezidentliyi dövründə Artsaxa məhz belə münasibət göstərib: o hesab edib ki, belə subyekt mövcud deyil, bundan əlavə, danışıqlar prosesindən sıxışdırılıb çıxarılan "DQR" danışıqların obyektinə çevrilib. İndi Köçəryan mahiyyətcə eyni şeyi daha təhlükəli nəticələrlə birlikdə edir. Özünün 1 mart 2008-ci il tarixdəki dəhşətli əməlini əsaslandırmaq üçün o, faktiki, bəyan edir ki, öz qüvvələri olan "DQR"in mövcud deyil və erməni ordusu azad edilmiş əraziləri "işğal edib". Başqa sözlə, Azərbaycan ərazilərini "işğal etməsi" haqqındakı tezisi inkişaf etdirilir. Təəccüblüdür ki, "DQR"in prezidenti Bako Saakyanın Aparat rəhbərinin müavini David Babayan "1in.am"la söhbəti zamanı qeyd edib ki, Köçəryanın vəkilinin bəyanatını şərh etmək istəmir. Çünki onlar Ermənistanın daxili siyasi, hüquqi proseslərinə müdaxilə etmirlər: "Bunu səlahiyyətli orqanlardan soruşmaq lazımdır". Babayan eyni zamanda qeyd edib: "DQR"in bütün bu proseslərə qoşulması düzgün deyil, biz qanunun aliliyinə əhəmiyyət veririk. Lakin "DQR"in Konstitusiyası var, siz hətta məndən soruşmaya və bu Konstitusiyanı oxuya bilərsiniz. Orada "DQR"in inzibati-ərazi bölgüsü var - necə rayonun, hansı rayon mərkəzlərinin olması göstərilib". Xankəndidən bundan daha "dişsiz" bəyanat gözləmək çətin idi.

Robert Köçəryan öz vəkili vasitəsilə açıq şəkildə "DQR"in " konstitusiya quruluşuna, onun ərazi bütövlüyünə" tüpürür, "DQR"in prezidentinin mətbuat katibi isə deyir ki, Ermənistanın daxili siyasi, hüquqi proseslərinə qarışmaq istəmirlər. Söhbət ərazi bütövlüyündən deyil, Robert Köçəryanın hüquqlarından gedəndə Bako Saakyan və Arkadi Qukasyanın aktiv "müdaxiləçi" olduqları xatırlanarsa, rəsmi Xankəndinin belə mövqe tutması həyasızlıqdır. Ancaq problemin daha prinsipial qatı mövcuddur. Köçəryanın vəkili diskursun mahiyyətini dəyişməklə, şüurlu şəkildə qarışıqlıq yaradır. Köçəryanın harada yerləşdirilmiş qüvvələrdən istifadə etməsi mühüm deyil. Ohanovskinin ifadələrində təkzib edildiyinin əksinə olaraq, onun qoşunların "DQR"dən gətirilməməsi haqqındakı versiyasını qəbul etsək də, istənilən halda, Köçəryan konstitusiya quruluşunu devirib. Çünki qanunvericilik onun silahlı qüvvələrdən, onların "DQR"də və ya Ermənistanda yerləşməsindən asılı olmayaraq, istifadə etməsini ümumiyyətlə qadağan edirdi. Köçəryanın müdafiəçisi faktiki etiraf edir ki, silahlı qüvvələrdən istifadə edilib. Başqa sözlə, konstitusiya quruluşunun devrilməsi faktını etiraf edir. Ancaq diskussiya yanlış müstəvidə davam edir. Bu, hüquqi baxımdan mənasız, siyasi planda isə təhlükəlidir. Çünki erməni tərəfinin maraqları Köçəryanın şəxsi ambisiyalarına tabe etdirilir". Beləliklə, bu qeyd edilənlərdən bəlli olur ki, Qarabağ məsələsi yenidən erməni cəmiyyəti daxilində ciddi çəkişmə predmetinə çevrilir.

"Qarabağ klanı"nın təmsilçiləri bildirir ki, əslində, onların məsələyə yanaşması kifayət qədər doğrudur və Paşinyan iqtidarı məsələyə obyekğtv yanaşmaq əvəzinə ölkəni yeni Qarabağ müharibəsinə sürükləyir. Xüsusən də Paşinyanın avqustun 5-də Xankəndidəki mitinqdə çıxışı zamanı avantürist bəyanatlar verərək Dağlıq Qarabağı Ermənistanın tərkib hissəsi elan etməsi, "miatsum" şüarını yenidən gündəmə gətirməsi bu fonda daha çox qabardılır.

Ermənistan parlamentinin deputatı, Respublika Partiyasının üzvü Artaşes Geqamyan Paşinyanın bu çıxışını açıq-aşkar təxribat adlandırır. O qeyd edir ki, "xalqın baş nazirinin" bu təxribatçı çıxışı Ermənistanı yeni müharibəyə sürükləyir, Minsk Qrupunun mövcudluğunu heçə endirir. Geqamyanın şərhində Paşinyanın hakimiyyət başına gələndən bu yana yürütdüyü avantürist siyasət, onun və komandasının Ermənistanın strateji müttəfiqi Rusiya ilə münasibətləri korlayan hərəkətləri, o cümlədən Qarabağ məsələsində tutduğu populist mövqe barədə sitatlar, faktlar yer alır. Erməni siyasətçi əsas diqqəti Paşinyanın Xankəndidəki çıxışına yönəldərək qeyd edir ki, baş nazirin "açıq-aşkar təxribatçı çıxışı" sayəsində Azərbaycanın Qarabağa hücuma keçməsi üçün münbit informasiya fonu yaradılıb. Siyasətçi xatırladır ki, Paşinyan Xankəndidə səsləndirdiyi "miatsum" şüarını, Dağlıq Qarabağın Ermənistanın "tərkib hissəsi olduğunu" sentyabrda ABŞ-a səfəri zamanı erməni icması qarşısında da təkrar etməyə, Amerikadakı erməni icmasının bu məsələdə dəstəyini qazanmağa hazırlaşır: "Və Paşinyan özünün bu açıq-aşkar, heç bir tərəddüdsüz təxribatçı sayılan sərsəm çıxışını sentyabrın 22-də Los-Ancelesin "Grand Park" otelində təkrarlamağa hazırlaşır. Onun gözlənilən hərəkətinin əsl məqsədi birdir: guya bütün dünya ermənilərinin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə dəstəyini qazanmaq. Düşünmək olar ki, bu akt on bir milyon ermənidən kiminsə ürəyincə olmayacaq. Nikol Vova oğlu isə özünün siyasi avantürasının mümkün qanlı nəticələrini və bu nəticələrə görə məsuliyyəti bütün erməni xalqının üstünə atmağa cəhd edir. Mən indi yazdıqlarımın sonradan necə alçaqcasına yozula biləcəyini dərk edirəm. Lakin təəssüf ki, həqiqət belədir. Paşinyan bu çıxışı ilə, faktiki olaraq, Minsk Qrupunun özünün mövcudluğuna da son qoydu, həmsədr ölkələrin prezidentlərinin çağırışlarına məhəl qoymadı. Halbuki, onlar son 10 il ərzində beş dəfə Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanmasına dair birgə bəyanatlarla çıxış etmişdilər". Artaşes Geqamyan vurğulayır ki, Paşinyan və tərəfdaşları 2008-ci il martın 1-də öz təxribatçı çağırışları ilə 10 Ermənistan vətəndaşının həlak olmasına gətirib çıxarmışdısa və indi bu cinayətin günahkarlarını kənarda axtarırsa, onun indiki təxribatçı nitqi daha çox qanlı nəticələrə gətirib çıxara bilər.

Ona görə də Geqamyan belə qənaətə gəlir ki, Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev bu günlərdə İrəvana ancaq bir məqsədlə gəlmişdi: indiki Ermənistan rəhbərliyini Cənubi Qafqaz regionunu qanlı müharibəyə sürükləyə biləcək sonrakı təxribatlardan çəkindirmək. İndi Ermənistanda ciddi şəkildə narahatdırlar ki, Paşinyan bu yanlışlıqlarını davam etdirsə, proseslərin nəticələri İrəvana çox baha başa gələcək. Bunu rusiyalı politoloq Vitali Arkov da təsdiq edir. Onun fikrincə, Paşinyan ölkədə iqtisadiyyatın çöküdüyü bir vaxtda öz reytinqini bərpa etmək təlaşındadır və bu məsələdə Qarabağ kartından yararlamağa çalışır:: "Amma o ciddi nöqsanlara da yol verir. Paşinyanın iqtisadi sahədə möcüzə yaratmaqda acizliyi elə bəri başdan bəllidir, amma əhalinin yoxsulluqda yaşayan çoxluğunu hər cür nağılla aldatmaq çətin deyildi. İndi isə Ermənistan xalqının qazancı boş sözlər, ən dəhşətlisi də Dağlıq Qarabağdan gələcək minlərlə tabut, minlərlə şikəst olacaq. Yəni Paşinyan bir çox erməni ailələrinə faciə gətirə bilər. "Qarabağ klanı" ilə Paşinyanın arasında ziddiyyətlərin daha da dərinləşməsini gözləmək olar. Baş nazir Qarabağdakı separatçı rejimi nəzarətə götürmək istəyir. Dağlıq Qarabağın köhnə kadrlardan təmizlənmədiyi az qala yeganə ərazi olması baş naziri və onun arxasındakı qrupları xeyli narahat edir. Bu vəziyyətdə tərəflər arasında ziddiyyət daha da dərinləşir və bu hal Qarabağ münaqişəsinin gedişinə də təsirsiz ötüşməyəcək". Bütün bunlar bir daha təsdiq edir ki, Ermənistanda Qarabağ məsələsi ətrafında ziddiyyətlər dərinləşir və bu hal düşmən ölkənin münaqişə ətrafında mövqelərini daha da zəiflədir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənistan bir ovuc kökü bilinməyən yezidi kürd üzərində "çoxmillətli cəmiyyət oyunu" oynayır...

**Əli Orucov:** *"Ermənistanın bu kimi addımları sırf təbliğat xarakterlidir"*

**İrəvanda ürəyindən ağır əməliyyat keçirən yezidilərin başçısı Əziz Tonoyan erməni hakimiyyətindən də şikayətlənib, amma sonra yaltaqlanmağa başlayıb. O, müxtəlif uydurma fikirlər səsləndirib: "Qoy bugünkü erməni hakimiyyəti yezidilərə fərq qoymasın və bizə qarşı görməməzlik etməsin. Bizə çoxları kürd deyirlər. Bununla da bizi kürdləşdirmək istəyirlər.**

*"İndi də belə bir rəy yaratmaq istəyirlər ki, guya bu ölkədə başqa millətlərin də nümayəndələri var"*

Biz kürd deyilik, biz yezidiyik. Kürdlər müsəlmandırlar. Bizim onlarla heç bir əlaqəmiz yoxdur. Mən yezidi xalqının tarixini yazan bir aliməm. Bu gün 60 kənddə yezidi dilində dərs keçilir. Təəssüf ki, onlardan 5 kənddə yezidilərə kürd dilində dərs keçirlər, buna son qoymalıyıq".

Daha sonra kökü bilinməyən bu şəxs bunları deyib: "Biz Qarabağ müharibəsində 500 nəfər yezidi əsgər yollamışıq döyüşə, 42 leş vermişik. Qarabağ hərəkatı başlayanda mən də onların yanında olmuşam. Azərbaycan nə istəyir Qarabağdan? Mənim valideynlərim də deyirdilər ki, Qarabağ ermənilərindir. Biz Azərbaycana bir qarış da torpaq verməyəcəyik. Onlar çox qorxaq millətdir. Bizim uşaqlar bir güllə atan kimi hamısı qalxıb qaçırdılar".

Aydın məsələdir ki, bütün bunlar Ermənistan hakimiyyətinin apardığı uğursuz təbliğatın bir hissəsidir. Bununla belə bir rəy yaratmağa çalışırlar ki, guya Ermənistan çoxmillətli ölkədir. Burada təkcə ermənilər deyil, digər millətlərin də nümayəndələri yaşayırlar. Ancaq reallıq ondan ibarətdir ki, Ermənistan monoetnik dövlətdir. Əhalinin, demək olar ki, hamısı ermənilərdən ibarətdir. Otuz il əvvəl Ermənistanda azərbaycanlılar, ruslar, yezidi kürdlər yaşayırdılarsa, indi bir nəfər də olsun azərbaycanlı yaşamır. O cümlədən, ruslar bu ölkəni tərk ediblər. Həmçinin, 30 il əvəl Ermənistanda 70 min nəfərədək yezidi kürd yaşayırdısa, indi onların sayı 6 min nəfərə düşüb.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, Ermənistanın bu kimi addımları sırf təbliğat xarakterlidir: "Dünyaya göstərmək istəyirlər ki, guya Qarabağ məsələsində təkcə ermənilər deyil, digər millətlərin də nümayəndələri onların mövqeyindən çıxış edirlər. Beləcə, yezidi kürdlər üzərində oyun oynayırlar. Ancaq Ermənistanın bu yöndə səylərinə rəğmən, bu kimi cəhdlər uğursuzluğa məhkumdur. Ona görə ki, artıq bütün dünya bunun fərqindədir. O mənada ki, Ermənistanda ermənidən başqa millət yaşamır. Çox az sayda yezidi kürd yaşayır ki, onlar da uzun illərdir diskriminasiyaya məruz qalırlar. İndi də belə bir rəy yaratmaq istəyirlər ki, guya bu ölkədə başqa millətlərin də nümayəndələri var. Otuz il əvvəl məlum hadisələr başlayanda azərbaycanlılarla yanaşı, ölkədə yaşayan müsəlman kürdlər də qovuldu. Ümumiyyətlə, digər etniklərin Ermənistanda varlığından söhbət gedə bilməz. Bu baxımdan bu məsələdə Ermənistanın danışmağa əsası yoxdur".



***Vidadi ORDAHALLI***

# ABŞ-Rusiya nüvə müharibəsi baş versə... Dünya 10 il Günəş üzü görməyəcək, "nüvə soyuqları" başlayacaq...



**Elm adamları Rusiya ilə ABŞ arasında nüvə müharibəsi baş verəcəyi halda dünyada müşahidə ediləcək dəyişikliklərlə bağlı araşdırmalar aparıb.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, tədqiqatçılar, belə bir müharibə olacağı halda, 10 il davam edəcək "nüvə soyuqları"nın yaşanacağı nəticəsinə gəlib.

Britaniyanın "Daily Mail" qəzetinə görə, ABŞ və Rusiya arasında mümkün müharibə atmosferə 147 milyon ton his yayacaq. Qısa zamanda da bütün atmosferə yayılaraq günəş şüalarının yer üzünə düşməsinin qarşısını alacaq və dünya qaranlığa bürünəcək. Bu isə, dünyada temperaturun 9 dərəcə aşağı düşməsi və ciddi bir iqlim dəyişikliyi deməkdir.

Mütəxəssislərin fikrincə, hisin tam aradan qalxması 7 il, atmosferin normal vəziyyətə qayıtması isə 3 il çəkə bilər.

**Qeyd edilir ki, ABŞ və Rusiya arasında mümkün nüvə müharibəsi 10 il davam edəcək soyuq qışa səbəb olacaq. Tədqiqatçılar nüvə hücumunun, hədəf alınan ölkə üçün intihar olduğunu da vurğulayıblar.**

# İran tankeri 45 gün "əsirlikdən" sonra başqa adla Cəbəllütariqdən ayrıldı



**Cəbəllütariq tərəfindən tutulan İran tankeri, Cəbəllütariq Ali Məhkəməsinin sərbəst buraxmaq qərarından sonra ölkəni tərk edib.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, tanker Yunanıstan istiqamətində yola çıxıb. "Grace 1"in adı sərbəst buraxılmasına dair qərardan dərhal sonra dəyişdirilib. Yerli "Gibraltar Chronicle" qəzetinin verdiyi məlumata görə, yeni adı "Adrian Darya-1" olan İran tankeri dünən axşam saatlarında Cəbəllütariqdən ayrılıb. Bunda əvvəl Cəbəllütariq, İran tankeri barədə həbs qərarı çıxaran ABŞ-ın gəmiyə əl qoymaq tələbini rədd etdiyini açıqlayıb. Cəbəllütariq ABŞ-ın İrana sanksiyalarının Avropa İttifaqı ərazisində keçərli olmaması səbəbindən Vaşinqtonun tələbinə əməl edərək yeni saxlanma qərarı çıxara bilməyəcəyini bildirib.

İran isə ABŞ müdaxiləsinə qarşı Adrian Darya-1-i qorumaq üçün hərbi gəmilər göndərməyə hazır olduğunu bəyan edib.

# Bakıda elit evlərin inşası dayandı

**Ölkənin daşınmaz əmlak bazarında son dövrlərdə maraqlı proseslər müşahidə olunmaqdadır. Söhbət bahalı, elit evlərin inşasının dayanmasından, əvəzində "ekonom klass" evlərə olan tələbin yüksəlməsindən gedir. Bazarda baş verən prosesləri yaxından izləyən tikinti şirkətləri indi əsas diqqəti "ekonom klass" evlərin inşasına yönəldib. Elə bu səbəbdəndir ki, belə evlərin qiyməti indi daha tez-tez dəyişir.**

Əvəzində, yuxarıda qeyd olunduğu kimi bahalı, elit evlərin inşası tamamilə arxa plana keçir. Bunu daşınmaz əmlak üzrə ekspert Nüsrət İbrahimov da təsdiq edir.

Bazarda mənzillərin qiyməti ətrafında baş verən dəyişikliklərdən danışan ekspert bu xüsusda qeyd edir: "2018-ci ildə isə həm təkrar mənzil bazarında, həm də ilkin mənzil bazarında qiymət artımı müşahidə etmişdik. Amma qiymət artımı daha çox ilkin mənzil bazarında müşahidə edilmişdi". Ekspertin sözlərinə görə, bu il ilkin mənzil bazarında qiymətlərdə bir qədər geriləmə müşahidə edilir ki, öz əvvəlki mövqeləri bərpa olunsun: "2018-ci ildə intensiv qiymət artımı bazarda alıcı kütləsini bu seqmentdən küsdürmüşdü. Ona görə də ilkin mənzil bazarında, xüsusən tikinti şirkətləri satışın həcmini artırmaq üçün qiymətlərdə müəyyən güzəştlərə getməli olur. Həm ilkin, həm də təkrar mənzil bazarında sabit strukturla isə qiymət artımı müşahidə olunur. Bu onunla bağlıdır ki, 2011-2017-ci illərdən fərqli olaraq, son 2 ildə bu bahalı, elit, VİP evlərə alıcıların marağı azalıb. Belə evlərin tikintisində isə nəinki azalma qeydə alınıb, hətta sıfıra enib. Tikinti şirkətləri bahalı mənzillərin tikintisində maraqlı deyillər. Çünki onlar artıq başa düşürlər ki, bazarda bu gün əsas alıcı kontingenti az və orta təminatlı ailələrdir. Onlar da daha çox bank krediti ilə bu mənzilləri almağa üstünlük verirlər. Kim ki, bahalı mənzil almaq iqtidarındadır, onların artıq mənzilləri var".

Həqiqətən də araşdırmalar göstərir ki, Azərbaycanda elit mənzillətə tələb azalıb. Bir müddət öncəyə qədər vəziyyət tamamilə bunun əksinə idi. Şəhərin bir çox yeni binalarında belə elit evlərə rast gəlmək olurdu və onların müştərilərinin sayı da az deyildi. Adətən elit kateqoriyalı mənzillər baha olması ilə seçilir. Hazırda belə evlərin alıcıları, demək olar ki, yoxdur. Ekspertlərin fikrincə, elit mənzillətə tələbin azalması onların qiymətinin daha baha olması və artıq satarkən, kirayəyə verərkən sahibinə əvvəlki gəliri gətirməməsilə bağlıdır. Əvvəllər elit mənzillər sahiblərinə gəlir gətirirdi. Ona görə ki, onu alıb müəyyən müddətdən sonra daha baha qiymətə satmaq mümkün idi. Bu da həmin evlərin sahiblərinə gəlir əldə etməyə imkan verirdi. Digər tərəfdən, bu tip evlərin gəlirli olması daha yüksək qiymətlərlə kirayəyə verilməsilə bağlı idi. İndi isə bazarda fərqli vəziyyət müşahidə olunur. Elit mənzillərə, qeyd olunduğu kimi, tələb yoxdur, həmçinin, belə mənzillər üçün kirayə tələbi də kəskin azalıb. Bütün bunlar da elit mənzillərin kirayəyə verilməsi baxımından gəlirli olmamasına gətirib çıxarıb. Belə vəziyyətdə elit mənzillərə marağın azalması təbii sayılır. Ekspertlər xatırladır ki, elit mənzillər üçün bir qayda olaraq bir kvadratmetrin dəyəri 2500-3000 manatdan başlayaraq yuxarı qalxır. Belə olan halda, təbii ki, alıcının geniş kütləsi belə mənzillərə maraq göstərə bilməz.




İndilikdə hesablamalara görə, 2019-cu ildə ilkin bazarda mənzillərin orta qiyməti 1 kvadrat metr üçün 1321 manat, 2018-ci ildə isə 1 kvadratmetr üçün 1200 manat təşkil edib. Qiymət artımına səbəb, yuxarıda qeyd olunduğu kimi, "ekonom klass" evlərə tələbin yüksəlməsi ilə bağlıdır. İndi alıcılar sərfəli, orta qiymətə malik "ekonom klass" evlərə üstünlük verir. Nəticədə ehtiyacı olan "ekonom klass" mənzillər bahalaşır. Qiymət artımına səbəb həm də əhalinin alıcılıq qabiliyyətinin artmasıdır. Alıcılıq qabiliyyətin artması bir tərəfdən əhalinin gəlirlərinin artması ilə bağlıdırsa, digər tərəfdən də kredit imkanlarının çoxalması ilə əlaqədardır. Mənzilə real ehtiyacı olan əhali isə, əsasən, əhalinin az gəlirli kontingentidir. Onlar da ən çox ucuz və kütləvi yaşayış yerlərindəki mənzillərə üz tuturlar. Bu ehtiyacı qarşılamaq üçün isə hökumət sosial mənzillərin inşasını genişləndirməyi düşünür. Artıq Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) ilk layihəsi olan Yasamal Yaşayış Kompleksində belə evlərin satışı baş tutub. Bu prosesin təhlili isə sosial evlərə də böyük tələb olduğunu üzə çıxarır. Sosial evlərin mənzil bazarına nə cür təsir edəcəyinə gəldikdə, ekspertlər bildirir ki, bu tip evlər mənzil bazarında hələlik ucuzlaşmaya səbəb ola bilməz. Belə ki, sosial mənzil 3 il müddətinə alqı-satqı predmeti ola bilməz. Eyni zamanda, sosial mənzillərin ümumi sayı bazarın ümumi tutumundan xeyli dərəcədə aşağıdır. Həmin sosial mənzillərin bazarda satışa çıxarılması ən yaxşı halda iki il sonra başlaya bilər ki, bu da bazarda təklifə hər hansı formada təsir göstərməyəcək. Belə vəziyyətdə ekspert qeyd edir ki, qarşıdakı aylarda həm də ipotekada olan ucuz mənzillərin qiymətində canlanma ola bilər. Eyni zamanda kirayə mənzil bazarında da qiymət artımı qaçılmaz sayılır və indidən bu hal özünü qabarıq surətdə büruzə verməyə başlayıb. Prosesin gələn ayın sonlarına kimi davam etməsi gözlənir.

***Tahir TAĞIYEV***



# Qara Dəniz Ticarət və İnkişaf Bankı gələcəkdə manat istiqrazları buraxa bilər

**Azərbaycanda bu və ya digər layihənin maliyyələşdirilməsi üçün milli valyutanın istifadəsinə imkan yaranacağı təqdirdə Qara Dəniz Ticarət və İnkişaf Bankı (QDTİB) gələcəkdə manat istiqrazları buraxa bilər.**

Bunu "Trend"ə özəl müsahibəsində bankın prezidenti Dmitri Pankin deyib.

O bildirib ki, əsas məsələ maraqlı layihələr tapmaqdır: "Layihələr olanda maliyyələşmə mənbələri məsələsini həll etmək lazım olacaq. Bu günədək biz layihələri maliyyələşdirmək üçün dollar və avrodan istifadə edirdik. Amma indi görürük ki, yerli bazarda pul cəlb etmək imkanı yaranıb ki, bu bizim üçün yeni vəziyyətdir. Biz əvvəlcə layihə seçəcəyik və maliyyələşmə üçün milli valyutadan istifadə imkanlarını nəzərdən keçirəcəyik. Bu cür imkan olarsa, Azərbaycan manatında istiqrazların buraxılışını davam edəcəyik".

QDTİB-in manat istiqrazlarına tələbat barədə danışan D.Pankin qeyd edib ki, bu istiqrazlarla bağlı gözləntilər elə də yüksək olmayıb:

"Biz bu nəticəni gözləmirdik. Gördük ki, tələb var, bazara maraqlıdır. Amma ən vacibi odur ki, bu istiqrazları Mərkəzi Bank vasitəsilə təkrar maliyyələşmə üçün istifadə etmək olar. Boz manat istiqrazları buraxan ilk beynəlxalq bank olduq, çünki bizim bu regionda təcrübəmiz var. Biz Gürcüstanda istiqrazlar buraxmışıq. Bunun necə işlədiyini bilirik".

# Banklarda manat depozitləri artır, valyuta depozitləri azalır, nə baş verir...

**Depozitlər həm fiziki, həm hüquqi şəxslərin bankda saxladıqları pul vəsaitləridir. Bu şəxslər bankda pul saxlamaqla həm faiz gəlirləri əldə edir, həm də öz pullarını risqlərdən (itki, oğurluq və s.) qoruyurlar. Banklar özləri isə həmin əmanətlərlə kredit verərək gəlir qazanırlar.**



## *Rəsul Cahangirli: "Banklarda manat depozitlərinin artmağa doğru getməsi əsasən milli valyutaya inamın yüksəlməsi ilə bağlıdır"*

Mərkəzi Bankın statistikasına əsasən məlum olur ki, banklara qoyulan əmanətlər ildən-ilə artmaqdadır. Diqqətçəkən məqam ondan ibarətdir ki, banka qoyulan manat depozitlərində artım tendensiyası müşahidə edilir. Əmanətləri manat və xarici valyutaya ayırsaq, manatla qoyulan əmanətlər artır. Ancaq son aylar müşahidə edilən proseslər onu göstərir ki, banklarda manatla qoyulan depozitlər artır, xarici valyuta ilə qoyulan depozitlər azalır. Belə ki, 2019-cu il iyun ayının 1-nə əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9,6 faiz artaraq 8622,9 milyon manat təşkil edib.

Düzdür, əmanətlərin 57,4 faizi xarici, 42,6 faizi isə milli valyutada qoyulub. Ancaq milli valyutada olan əmanətlər ötən ilin müvafiq dövrünə nisbətən 25,8 faiz artıb, xarici valyutada əmanətlər isə təqribən eyni səviyyədə qalıb.

Ümumən, depozitlərlə bağlı nə baş verir? Ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, bu, manata inamın artması ilə bağlıdır: "Açıqlanan rəqəmlərdən milli valyutaya inamın artması müşahidə olunur. Çünki uzun müddətdir manat öz möhkəmliyini qoruyur. Buna artıq həm ölkə iqtisadiyyatı, həm də vətəndaşlarımız adaptasiya olublar. Məzənnənin uzun müddətdir sabit qalması milli valyutaya inamı daha da artırıb. Bu səbəbdən də əmanətlərin milli valyuta ilə qoyuluş həcmi də artıb. Həmçinin, artıq vətəndaşlar bu kimi məsələləri təhlil edə bilir və onlar real vəziyyəti analiz edib qərar verirlər. Nəzərə almaq lazımdır ki, 2015-ci ildə ard-arda devalvasiya baş verdi və 2016-cı il ərzində isə manat təxminən 15 faizə yaxın ucuzlaşdı. Bu da vətəndaşlarda manata inamı aşağı saldı. Nəticə olaraq, vətəndaşlar banklarda olan əmanətlərini geri çəkdilər. Geri çəkməyənlər isə xarici valyutaya çevirdilər. Beləliklə, həmin dövrdə banklara dollarla əmanət qoyuluşu 90 faizə qalxdı. Ancaq 2017-ci ildən ölkənin valyuta bazarında sabitlik yarandı və manatın məzənnəsi 1.70-də sabit dayandı. Bu, əhalidə əvvəlki dövrdə manatla bağlı itmiş inamın bərpasına şərait yaratdı. Başqa bir tərəfdən, 2016-cı ilin mart ayında əmanətlərin sığortalanması haqqında qanun qəbul edildi.

*"Buna artıq həm ölkə iqtisadiyyatı, həm də vətəndaşlarımız adaptasiya olublar"*

Həmin qanunda manatla yerləşdirilən əmanətlərdə faiz dərəcəsi dollar ilə müqayisədə daha çox idi. Qanuna əsasən, manatla olan əmanətlər tam olaraq sığortalandı. Bu addım da əhalidə banklara inamın artmasına müsbət təsir etdi. Bu amilin də rolu var. Ancaq banklarda manat depozitlərinin artmağa doğru getməsi əsasən milli valyutaya inamın yüksəlməsi ilə bağlıdır".

***Vidadi ORDAHALLI***

# Sığorta bazarında 9 faizə yaxın tənəzzül...

**Bu ilin ilk yarısında sığorta şirkətləri, ümumilikdə, 361.3 milyon manat məbləğində sığorta haqları toplayıb, bu da 2018-ci ilin müqayisə edilən dövründən 8,9 faiz azdır. Maliyyə Bazarlarına Nəzarət Palatasının məlumatına görə, bu zaman sığorta ödəmələrinin həcmi (119,1 milyon manat), demək olar, dəyişməyib.**




## *Xəyal Məmmədxanlı: "Azalma əsasən həyat sığortaları ilə bağlıdır"*

Könüllü sığorta bazarı üzrə haqlar 241.8 milyon manat, ödənişlər isə 83.3 milyon manat təşkil edib. Ölkədə könüllü sığorta növlərinin hesabına 176, 202 milyon manat sığorta haqqı toplanıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 13,15 faiz azdır.

Son 1 ildə icbari sığorta növləri hesabına daxilolmaların məbləği isə 10,6 faiz artaraq 89,094 milyon manat olub. Hesabat dövründə könüllü sığorta növləri üzrə ödənişlərin məbləği 43,346 milyon manat təşkil edib ki, bu da illik müqayisədə 23,9 faiz azdır. İl ərzində icbari sığorta növləri üzrə ödənişlərin məbləği isə 8,1 faiz artaraq 23,305 milyon manata çatıb.

Beləliklə, könüllü sığorta bazarından toplanmış hər 100 manat sığorta haqqının 24,6 manatı qədər ödəniş edilib. Bu rəqəm 2018-ci ildə 25,8 manat olub. Son 1 ildə icbari sığorta bazarında hər 100 manat sığorta haqqına düşən ödənişin məbləği isə 26,8 manatdan 26,2 manata düşüb.

Onu da qeyd edək ki, bu ilin birinci rübündə sığorta yığımları azalanda sığota ilə məşğul olan qurumlar bunu onunla əlaqələndirdilər ki, adətən, birinci rübdə yığımların həcmi aşağı olur. İlin yarısından isə yığımlarda artım özünü göstərir və bu proses ilin sonunda bir qədər də müsbətə doğru dəyişir. Yəni ilin sonuna yaxın sığorta yığımları artır. Ancaq son statistik rəqəmlərdən bəlli olur ki, sığorta yığımlarında artm meylləri olmayıb. Nəticədə sığorta yığımları ötən ilin eyni dövrü ilə müqayisədə 8,9 faiz azalıb.

Maraqlıdır, sığorta yığımları niyə azalır?

Məsələyə aydınlıq gətirən sığorta sektoru üzrə ekspert Xəyal Məmmədxanlı azalmanın səbəbini bir sıra amillərlə əlaqələndirdi: "Ümumilikdə, sığorta yığımlarının azalması proqnozlaşdırılırdı. Bu əsasən həyat sığortaları ilə bağlıdır. Əvvəllər vətəndaşların həyat sığortası ilə bağlı ayrılan vəsaitlər gəlir vergisindən, o cümlədən, DSMF-nin ayırdığı ödənişlərdən asılı idi. Ancaq ötən il bununla bağlı qanuna dəyişiklik edildi. Dəyişikliyə görə, həyat sığortasından azad edilən təbəqə əməkhaqqının müəyyən hissəsini həyat sığortasına yönəltməlidir. Ona görə də yaşam sığortasında çox ciddi azalma baş verdi. Çünki əvvəllər 1000 manat yaşam sığortasına ayrılırdısa, artıq 500 manat da ayıra bilmirlər. Bunun hesabına, təbii ki, sığorta bazarında yığımlarda azalma baş verdi. Ümumi sığorta növlərini müqayisə etdikdə əsasən iki sığorta növündə azalma nəzərə çarpır. Ən böyük azalma həyatın yaşam sığortasındadır. Digər tərəfdən, qəribə də olsa, əmlak sığortasında azalma müşahidə edilir. Xüsusən də bu ilin 2-3 ayında bu sahədə daha çox azalma var idi. Məlum ticarət mərkəzlərində baş verən yanğınlardan sonra gözlənilirdi ki, əmlak sığortalarına maraq daha da artacaq, amma bu baş vermədi.

*"Məlum ticarət mərkəzlərində baş verən yanğınlardan sonra gözlənilirdi ki..."*

Çünki rəqəmlər bunu göstərmədi. Görürük ki, əmlak sığortalarında azalma müşahidə edilir. Nəyə görə bu sahəyə marağın olmaması bəlli deyil. Digər sığorta növlərində isə nə ciddi artım, nə də ciddi azalma müşahidə edilmir".

***Vidadi ORDAHALLI***

# Nəzarətsiz uşaqların qaraçılar tərəfindən oğurlanması xəbərləri ciddiləşir

## *Şəmsəddin Əliyev: "Bakı Şəhər Baş Polis İdarəsinin dilənçi mafiyasının çirkin əməlləri ilə bağlı ictimaiyyəti xəbərdar etməsi çox müsbət haldır"*

**Dilənçilik müsbət keyfiyyət göstəricisi olmasa da, bəzi insanlar bunu artıq özü üçün bir "peşəyə" çeviriblər. Təəssüf ki, bizim cəmiyyətimiz də dilənçilərdən xali deyil. Dilənçilər özləri dilənməklərinin səbəbini maddi imkansızlıqla bağlasalar da, əslində, bunun mahiyyətində tamamilə başqa bir amil dayanır. Bu da o insanların yüngül yolla pul qazanması ilə bağlıdır.**



*"Dilənçiliyin və uşaq oğurluğunun qarşısının alınması sahəsində polis çox aktiv fəaliyyət göstərir"*

Hazırda şəhərimizdə azyaşlı uşaqlardan tutmuş, qucağı körpəli qadınlara qədər dilənçiliklə məşğul olanlar var. Bu gün dilənçilər, sözün həqiqi mənasında, cəmiyyətimiz üçün böyük bəlaya çevrilib. Sirr deyil ki, dilənçiliklə məşğul olan insanlar hətta başqasının uşaqlarını belə oğurlayaraq dilənçiliyə məcbur etməkdən çəkinmirlər. Bildiyimiz kimi, son zamanlar bir neçə uşaq dilənçilər tərəfindən oğurlanaraq dilənməyə məcbur edilib. Şübhəsiz ki, polisin fakta operativ reaksiyasından sonra həmin uşaqlar dilənçilərin əlindən alınıb. Bu da məlumdur ki, dilənçilər əsasən valideyn nəzarəti olmayan uşaqları oğurlamağa, onların əməyini istismar etməyə üstünlük verirlər. Burada valideynlərin uşaqlarına etinasız münasibəti də az rol oynamır. Dilənçilər uşaqları nəzarətsiz gördükləri üçün onları oğurlayır, uşağın başına ağlagəlməz oyunlar açırlar. Hətta onları şikəst etməkdən belə çəkinmirlər. Dilənçilərin şikəst edərək dilənçiliyə cəlb etdiyi uşaqların sayı da az deyil.

Bildiyimiz kimi, intensiv olaraq Azərbaycan polisi dilənçiliyə qarşı mübarizə aparıb, oğurlanan uşaqları dilənçilərdən alaraq ailələrinə qaytarıb. Sözsüz ki, başqa ölkələrlə müqayisədə bizdə polis bu kimi hallarla bağlı daha geniş səviyyəli və aktiv mübarizə aparır.

Bir neçə gün əvvəl paytaxtda dilənçilik edən bir qadının azyaşlı uşaqları oğurlayaraq dilənçiliyə cəlb etməsi halı polisi hərəkətə gətirib. Bakı Şəhər Baş Polis İdarəsi dilənçilərlə bağlı ictimaiyyətə xəbərdarlıq edib.

Bakı Şəhər Baş Polis İdarəsinin yaydığı məlumatda bildirilir: "Paytaxtda dilənçilik həyat tərzi keçirən qadının azyaşlı uşaqları oğurlayaraq Bərdə rayonuna aparması cəmiyyət üçün kifayət qədər həyəcanlı xəbər oldu.

Polisin keçirdiyi intensiv əməliyyat-axtarış tədbirləri ilə azyaşlılar müəyyən olunaraq, ailəsinə təhvil verildi, ictimai təhlükəli əməldə şübhəli bilinən 1993-cü il təvəllüdlü qadın tutularaq istintaqa verildi. Baş verən əməlin ictimai təhlükəlilik dərəcəsini nəzərə alaraq, hadisədən nəticə çıxarılmalı, polisin dilənçiliyə qarşı mübarizə tədbirlərinin daha mütəşəkkil formada və məzmunda aparılmasında ictimaiyyətin dəstəyini aktuallaşdırır. Təkcə Azərbaycanda yox, Avropa ölkələrinin təcrübəsi göstərir ki, dilənçilər kriminal risq qrupuna daxildir. Elmi ədəbiyyatlarda xeyli istinadlar var".

Məlumatda qeyd edilir ki, əmək qabiliyyəti olan, ancaq haradasa işləmək vərdişindən uzaq olan dilənçilərin paytaxtda ictimai təhlükəli əməl törədərək nəzarətsiz qalan azyaşlıları oğurlaması, talama cinayətlərində iştirakçılığı müşahidə olunmaqdadır. İyun ayında Sabunçu və Binəqədi rayonlarında valideyn məsuliyyətsizliyi ucbatından 3 yaşlı Z.Bağırovanın, avqustun 15-də 7 yaşlı R.Mirzəyevin, bacısı 6 yaşlı Mələyin oğurlanması faktını xatırladan Bakı Şəhər Baş Polis İdarəsindən qeyd edilir ki, polisin bu istiqamətdə tədbirləri nəticəsində müəyyən olunan azyaşlılar məhz dilənçilərdən aşkarların paytaxt küçələrində saxta göz yaşları ilə əl açıb dilənmələrinə inanmamalı, şikəst, xəstə, köməyə möhtac imitasiyalarına məhəl qoymamalıdırlar. Onlar ac, köməyə möhtac olduğu üçün yox, peşələri dilənçilik olduğu üçün əl açırlar. Bu onlar üçün digər insanları talamağa, yaxud dələduzluq yolu ilə cəmiyyətə yalan sırımağa köklənən əməldir. Konkret faktları sadalamadan diqqətə çatdırırıq ki, onlar dilənçilik adı altında yaşayış evlərinə, mənzillərə, mağazalara, avtomobillərə daxil olmaqla, nəzarətsiz qalan əşyaları talamaqdan belə çəkinmirlər. Hətta müşahidə olunur ki, dilənçilər küçə ticarəti adı altında əhalinin sıx olduğu yerlərdə, məhəllələrdə dolaşaraq, kilidi bağlamağı unudulan yaşayış yerlərinə daxil olunub. "Baş verən hadisələrin oxşar tərəfləri, mahiyyəti, ictimai təhlükəlilik dərəcəsi ilə bağlı aparılan araşdırmalar və təhlillər göstərir ki, onlara qarşı mübarizənin səmərəliliyinin artırılması istiqamətində şəhər sakinləri həssas olmalı, onolmaqla oğurluq edirlər, yaxud fala baxaraq insanları çaşdırır, onların duyğuları ilə oynayırlar. Daha peşəkarları insanlara yaxınlaşaraq "nəsə probleminiz var, nəsə gözləntiniz var", - deyə müraciət edir, "kömək" təklif edirlər. Təbii ki, cəmiyyətdə hamının nəsə gözləntisi var. "Vəziyyətdən çıxış yolu var" deyib, müxtəlif magik-dini jarqonlarla insanları ələ almaqla onları talayırlar. Eləcə də onlar sənədsiz və qeydiyyatsız, klassik ənənələrlə doğulan övladlarını digər dilənçilik həyat tərzi keçirən şəxslərə icarəyə verir, ödəniş müqabilində qazanc əldə edirlər. Cəmiyyətin azyaşlılara münasibətdə həssas olduğunu, psixoloji yanaşmanı bilən peşəkar dilənçilər bütün mümkün vasitələrdən istifadə edirlər. Bu barədə əməliyyat yolu ilə polisə daxil olan məlumatlarda vurğulanır ki, azyaşlılarla dilənmək səmərəlidir, bununla onlar gündəlik gəlirlərini daha çox artırırlar. Bayram günlərində isə bu məbləğ üç dəfə artır. Və hamı bilməlidir ki, onlara verilən hər qəpik ayrı-ayrı dilənçi işbazların büdcəsini artırır. Cəmiyyət onlara "nəzir" verməkdən imtina etsə, onların sayının azalmasına təsir etmiş olacaq.

Qeyd olunanları nəzərə alaraq, ictimaiyyət nümayəndələrini, qeyri-hökumət təşkilatlarını, mətbuatı - qəzet, informasiya saytlarını, televiziyaları, radioları polisin dilənçilərə, dilənçilik həyat tərzi keçirən şəxslərə qarşı mübarizəsində fəal olmağa və cəmiyyəti məlumatlandırmağa, polisin mübarizə tədbirlərinin daha mütəşəkkil formada və məzmunda aparılmasına dəstək verməyə çağırırıq" - deyə idarənin yaydığı məlumatda bildirilir.

"Polisə Dəstək" İctimai Birliyinin rəhbəri, tanınmış hüquqşünas Şəmsəddin Əliyev bizimlə söhbətində bildirdi ki, ictmaiyyət bu kimi cinayətlərin ifşa olunmasında polisə dəstək olmalıdır. Ş.Əliyev qeyd etdi ki, indiyə qədər dilənçi mafiyası tərəfindən oğurlanan uşaqların aşkarlanaraq ailələrinə qaytarılması istiqamətində polis çox böyük işlər görüb. Valideynləri ayıq-sayıq olmağa çağıran Ş.Əliyevin sözlərinə görə, uşaqları oğurlayan dilənçi mafiyası o uşaqları dilləndirməklə kifayətlənmir, hətta onların özlərini və bədən üzvlərini satırlar. "Bakı Şəhər Baş Polis İdarəsinin dilənçi mafiyasının çirkin əməlləri ilə bağlı ictimaiyyəti xəbərdar etməsi çox müsbət haldır. Əslində, bu, Azərbaycan polisinin fəaliyyət istiqamətlərindən biridir. Zaman-zaman polisimiz ərazi üzrə öz fəaliyyətini gücləndirib və bunun da çox uğurlu nəticələri var. Dilənçiliyin özü insanları tənbəlliyə, ələbaxanlığa öyrədən bir yoldur. Bu insanlar zəhmətdən uzaq adamlardır. Burada cəmiyyətin görmədiyi məqamlar da var. Deyim ki, dilənçiliyin özü insan alverinə xidmət edən mənfi bir amildir. Burada insan alveri istisna deyil. Dilənçilər uşaqları oğurlayır və onları müxtəlif cür istismar edirlər. Əlbəttə, dilənçilər özbaşına fəaliyyət göstərmir, onların təşkilatçıları, arxalarında cəmiyyətin görmədiyi havadarları var. Azərbaycan polisi insan alverinin bir qolu olan mütəşəkkil cinayətkarlığa qarşı ciddi mübarizə aparır. Mən indiyə qədər baş verən faktları sadalamaq istəmirəm. Amma son bir il ərzində uşaqların dilənçilər tərəfindən oğurlanması ilə bağlı bir neçə fakt baş verib. Düşünürəm ki, burada uşaq alveri, eləcə də o uşaqların bədən üzvlərinin satılması kimi halları baş verə bilər. Lakin polis bu kimi hadisələrə vaxtında reaksiya verir və dilənçi mafiyasının üzvlərini ifşa edir, onları cinayət məsuliyyətinə cəlb edir. Dilənçiliyin və uşaq oğurluğunun qarşısının alınması sahəsində polis çox aktiv fəaliyyət göstərir və ictimaiyyətin də bütün hallarda polisə dəstək göstərməsi gərəkdir. Bu kimi halların qarşısının alınması üçün ictimaiyyət də ayıq-sayıq olmalıdır" - deyə Ş.Əliyev qeyd etdi.

***İradə SARIYEVA***

# Məktəblilərimizin yeni formalarında hansı element dəyişiklikləri olacaq...

**Yeni tədris ilinin başlanmasına bir aydan az bir vaxt qalıb. Bu da məktəbli formaları ilə bağlı məsələnin yenidən gündəmə gəlməsinə səbəb olub. Tədris ili yaxınlaşdıqca valideynlər övladlarına hansı çeşiddə, dizaynda məktəbli forması almalı olduğunu düşünürlər. Bu ərəfədə dövlət ümumtəhsil orta məktəblərində təhsil alan şagirdlərin geyim formasının dəyişəcəyi barədə xəbərlər yayılıb.**

Məlumatlara görə, məktəbli formaları dəyişir. Əsas təkliflərdən biri yeni hazırlanacaq məktəbli formalarının müasir olması və fəsil amilinin nəzərə alınması məsələsidir. Məlum olduğu kimi, artıq Təhsil Nazirliyində yeni vahid məktəbli formasının hazırlanması üçün işçi qrupu yaradılıb.

Bakı Tikiş Evinin satış şöbəsinin rəisi Etibar Əzimov "Bakı-Xəbər"ə bildirdi ki, bu məsələ ilə bağlı artıq işçi qrupu yaradılıb. Onun sözlərinə görə, işçi qrupu tərəfindən hazırlanacaq yeni layihə üzrə məktəbli forması tikiləcək. E.Əzimovun sözlərinə görə, yeni məktəbli formasından şagirdlər 2020-2021-ci tədris ilində istifadə edəcəklər.

E.Əzimovun sözlərinə görə, işçi qrupuna BTE-nin baş dizayneri, konstruktoru və baş mühəndisi də daxildir. Müsahibimiz vurğuladı ki, təkliflər sırasında yeni hazırlanacaq vahid məktəbli formasının fəsillərə görə fərqli olması da var: "Yeni məktəbli geyimləri ilə bağlı nazirlikdə işçi qrupu yaradılıb. İşçi qrupu tərəfindən hazırlanacaq layihə bu il tətbiq olunmayacaq. Yeni məktəbli formaları 2020-2021-ci illərdə istifadəyə veriləcək. Bu tədris ilində isə şagirdlər əvvəlki məktəbli formalardan istifadə edəcəklər. Bizə Təhsil Nazirliyindən vahid məktəbli formasının yeni dizaynda hazırlanması ilə bağlı məktub daxil olub. Həmin məktubda bizim dizayner və konstruktorun da iştirak etməsi qeyd edilmişdi. Mən Təhsil Nazirliyində yeni dizaynda vahid məktəbli formasının hazırlanması ilə bağlı işçi qrupunun iclasında iştirak etdim. Orada bir sıra təkliflər öz əksini tapmışdı. Əsas təkliflərdən biri yeni hazırlanacaq məktəbli formalarının müasir olması və fəsil amilinin nəzərə alınması məsələsidir. Təklif edilir ki, yuxarı sinif şagirdləri üçün vahid məktəbli forması onların zövqünə uyğun, müasir tərzdə olsun. Çünki yuxarı sinif şagirdləri əksər hallarda məktəbli forması geyinməyə maraq göstərmirlər".

Yeni məktəbli formasının bu il hansı səbəbdən istifadəyə verilmədiyinə aydınlıq gətirən E.Əzimovun bildirdiyinə görə, bu ilə bu işi təbii ki, çatdırmaq olmaz. O bildirdi ki, gələn tədris ilinə qədər yaradılan işçi qrupu bu istiqamətdə çalışacaq, təklif olunan dizaynlar müzakirə ediləcək. "Yəqin ki, bizimlə yanaşı, başqa tikiş fabrikləri də bu müzakirələrdə iştirak edəcəklər. Bizim bu işdə təcrübəmiz daha çox olduğundan, BTE-nin baş dizayneri, konstruktoru və baş mühəndisi də işçi qrupuna daxil edildi" - deyə o qeyd etdi.

***Etibar Əzimov:** "Əsas təkliflərdən biri yeni hazırlanacaq məktəbli formalarının müasir olması və fəsil amilinin nəzərə alınması məsələsidir"*



***Təhsil Nazirliyi:** "Bununla əlaqədar Bakı Tikiş Evinə müraciət olunub, hazırda müvafiq işlər aparılır, dizaynerlər tərəfindən formaların ilkin variantı hazırlanmaqdadır"*

Təhsil Nazirliyinin mətbuat xidmətindən isə bildirdilər ki, vahid məktəbli forması 2020-2021-ci tədris ilindən tətbiq ediləcək: "Yeni tədris ilində ümumi təhsil müəssisələrində məktəbli formasının tətbiqində dəyişiklik olmayacaq. Vahid məktəbli formasının 2020-2021-ci tədris ilindən tətbiqi nəzərdə tutulur.

**Təhsil Nazirliyində qeyd olunan məsələ ilə bağlı işçi qrupu yaradılıb. Bununla əlaqədar Bakı Tikiş Evinə müraciət olunub, hazırda müvafiq işlər aparılır, dizaynerlər tərəfindən formaların ilkin variantı hazırlanmaqdadır. Yeni məktəbli formasının dizayn layihəsi ictimai rəyə çıxarılacaq, bu zaman valideyn, müəllim və şagirdlərin rəyinə üstünlük veriləcək. Yekun rəydən sonra 2020-2021-ci tədris ilindən ölkənin ümumtəhsil məktəblərində yeni vahid məktəbli forması tətbiq olunacaq".**

***İradə SARIYEVA***

# Keşiş Vartanın uydurduğu "erməni Naxçıvanı" mifini tarmar edən əsər...

**Tanınmış ictimai-siyasi xadim, filoloq, tarixçi, türkoloq, ardıcıl olaraq kifayət sayda qədim müəlliflərə, mötəbər qaynaqlara, etnoqrafik abidələrə, kilsə ədəbiyyatına, məşhur rus, erməni və Avropa tarixçilərinə istinad edərək erməni "tarixşünaslığına" sarsıdıcı elmi zərbələr endirən Turan Araşdırma Mərkəzi İB-nin sədri, professor Əjdər Tağıoğlunun (İsmayılovun) növbəti elmi əsəri - "Naxçıvan toponiminin etnotarixi əfsanələr qədər qədimdir" adlı kitabı "Elm və təhsil" nəşriyyatında işıq çapdan çıxıb.**




Kitabın redaktoru AMEA-nın müxbir üzvü Vəli Əliyev, rəyçisi Qafqazşünaslıq İnstitutunun Ermənişünaslıq şöbəsinin müdürü, tarix elmləri doktoru Qasım Hacıyevdir.

İşğalçı rus imperatorluğunun "Mərkəzi Baş kilsəsi"nin himayədarlığı altında Eçmiədzin kilsəsi qədim Naxçıvanın Oğuz - Türk tarixini dini-mistik əfsanə qəhrəmanı Noyun (Nuhun) mifik şəxsi rəmzində keşişi Vartanın uydurduğu "erməni Naxçıvanı" adyla dünya ictimaiyyətinin beynində yerləşdirmişdi. Bu fantastik mif ilk dəfə professor Əjdər Tağıoğlunun "Naxçıvan toponiminin etnotarixi əfsanələr qədər qədimdir" əsərində elmi-tarixi faktlarla darmadağın edilir. Müəllif dünya arxeologiyasına söykənərək o nəticəyə gəlir ki, tarixdə nə "Dünya Daşqını" baş vermişdi, nə də dini mistikada guya yeni insan cəmiyyətinin "əcdadı" hesab edilən Noy real şəxsiyyətdir. Bu dini əfsanəni ilk dəfə xristian missionerləri tarixi m.ö. 5000-ci illərə gedib çıxan Şumer-Türk əhalisinin abidəsi olan "Bilqamıs" dastanının XI bölməsindən götürüb, m.s. "Bibliya"da dövrün dini-siyasi tələblərinə uyğun olaraq, etnik zəmində fantastik əlavələrlə xristian tarixinə çevirib.

Müəllif araşdırmasında nəticəyə gəlinir ki, Eçmiədzin kilsəsinin guya XIX əsrın I yarısında yaşamış, əslində heç bir elmi ədəbiyyatda adı qeydə alınmamış, anonim keşiş Vartanın adına uydurduğu "erməni Naxçıvanı" iddiası yarıdilənçi qaçqın, köçəri ermənilərin "qədim Qafqaz tarixi" qədər illüziyadır, mifdir.

***Xəbər xidməti***

**Boşanma hadisələri yaxın 20-25 ilə qədər Azərbaycanda elə də geniş yayılmamışdı. Çox təəssüflər olsun ki, ailə institutunun formalaşmasına ciddi zərbə vuran boşanma amili bir kabus kimi insanları, xüsusən də gənc ailələri təhdid edir. Söz yox ki, boşanmadan valideynlərdən çox uşaqlar əziyyət çəkirlər. Bu da onların psixikasına çox ciddi zərbə vurur.**

# Azərbaycanda boşanmalar həqiqətən artan problemə çevrilməyə başlayır

## ***Mehriban Zeynalova:*** *”Boşanmaların sayının belə kəskin artmasında iqtisadi, sosial faktorlardan daha çox psixoloji faktorlar var”*



Rəsmi məlumatlara görə, son illər Azərbaycanda boşanma halları genişlənib. Dövlət Statistika Komitəsindən mətbuata verilən məlumata görə, bu ilin 6 ayında qeydiyyat şöbələri tərəfindən 29391 nikah və 8257 boşanma halları qeydə alınıb.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,7-dən 6,0-a qədər artıb. Məlumatda bildirilir ki, boşanmaların sayı 1,5-dən 1,7-yə qədər çoxalıb.

"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova problemin səbəblərini "Bakı-Xəbər"ə şərh edərkən bildirdi ki, bunun müxtəlif səbəbləri var, başlıca səbəb isə tərəflərin ailə institutuna məsuliyyətsiz yanaşması ilə bağlıdır. O hesab edir ki, ailə quran şəxslərin xeyli qismi nikaha ömürlük bir ittifaq kimi deyil, müvəqqəti bir yaşayış kimi yanaşdığı üçün, sözügedən problem baş verir. "Bu proses o vaxta qədər gedəcək ki, insanlar şüurlu ailə qurmaq istəyini və onun məsuliyyətini dərk edəcəklər. Burada problemlərdən biri nikaha girənlərin öhdəlik və məsuliyyət hissini dərk etməməsi ilə bağlıdır. Əvvəllər valideynlər himayə edirdi və bu proses elə də çətin keçmirdi. İndi valideynlərin özlərinin vəziyyəti kifayət qədər çətin olduğu üçün, onlar himayədarlıq hissindən imtina edirlər və ailə quranların özlərinin öz həyatlarını idarə etməsini sərbəst buraxırlar. Amma səbəblərdən biri də valideynlərin öz övladlarına ailəni müstəqil şəkildə idarə etməyi öyrətməməsidir. Burada, həmçinin, bir-birinə zidd psixoloji amillər də var ki, uşaqlar valideynlərin onların problemlərini həll etməsini, qayğılarını çəkməsini gözləyirlər. Boşanmaların digər səbəblərindən biri də onların bir-birinə bəslədiyi inamsızlıqdır, yəni onların bir-birinə inamı yoxdur. Onlar demirlər ki, sona qədər bir yerdə olacağıq. Deyirlər ki, evlənək, görək sonu necə olacaq? Əvvəllər evlənənlər bir ömür bir yerdə olacaqlarını düşünürdülər, bu vacib amili əsas götürürdülər, indi isə evlənənlərin çox hissəsi müvəqqəti nikahı üstün tutur-

*”Maraqlıdır ki, ailədə həm kişi, həm də qadın bərabərlikdə deyil, birincilikdə dayanmaq istəyir, bu da, təbii, sonucda boşanmaya gətirib çıxarır”*

lar".

Boşanmaların başqa səbəblərindən birinin də tələsik, məcburi evlilik olduğunu deyən M.Zeynalovanın sözlərinə görə, gənclərin müvəqqəti evliliyə maraq göstərməsi boşanma ilə nəticələnir. Gənclərin çoxunun ailə idarə etməyi bacarmamasından danışan M.Zeynalovanın qeyd etdiyinə görə, gəlinlər və oğullar elə hesab edirlər ki, ata-ana bunlara baxmalıdır. Bu ziddiyyətlər də ailələrin dağılmasına səbəb olur. Ölkəmizdə bir sıra təşkilatların boşanma əleyhinə maarifləndirmə tədbirləri aparmasının elə də böyük nəticə vermədiyini deyən M.Zeynalovanın fikrincə, gənclər ailə münasibətlərində bir-birilə açıq, şəffaf olmalıdırlar. "Əvvəlki dövr deyil ki, insanlar ictimai qınaqdan çəkinib boşanmayalar, dil tapıb yaşayalar. İnsanlar müəyyən bir vaxtdan sonra öz arzularını ortaya qoymağa başlayır, bu da ziddiyyət yaradır. Nikaha girənlər deyirlər ki, əvvəl belə razılaşmışdıq, indi başqa cürdür. Bu da münasibətlərin korlanmasına səbəb olur. Burada çoxlu faktor var. Boşanmaların sayının belə kəskin artmasında iqtisadi, sosial faktorlardan daha çox psixoloji faktorlar var. Bu gün ailə modelində psixoloji faktor birinci yerdə dayanır. Sonra gender bərabərliyinin pozulması da əsas məsələlərdən biridir.

Qadınların ailədə üstünlüyü əldə etməsi, kişilərin bu üstünlüklə, bərabərliklə razılaşmaması da faktdır. O ailə modeilində ki, nikaha girən insanlar razılığa gəlib ailəni idarə etməlidirlər, indi insanlar bununla razılaşmaq istəmirlər. Maraqlıdır ki, ailədə həm kişi, həm də qadın bərabərlikdə deyil, birincilikdə dayanmaq istəyir, bu da, təbii, sonucda boşanmaya gətirib çıxarır" - deyə M.Zeynalova qeyd etdi.

***İradə SARIYEVA***

---

**Azərbaycan tarixində izi olan toplumlardan biri kimi Cek kəndində yaşayan ceklilərin özünəməxsus yeri var. Ceklilər Azərbaycanda yaşayan etnik toplumlardan biri kimi ölkəmizin həyatında mühüm rol oynayıb.**

# Məşhur Cek kəndinin turizm potensialı genişlənir

## *Son illər aparılan infrastruktur quruculuğu yeni imkanlar açır*



"Cek" toponiminin etimologiyasını hələlik tam açıqlamaq mümkün olmayıb. Ehtimal edilir ki, "Cek" sözü cek dilindəki "ciqa" sözündən yaranıb və Azərbaycan dilində "ərazi", "məkan", "torpaq", "yer" deməkdir.

Cek xalqına məxsus dilin türk dillərindən xeyli fərqlənməsinə baxmayaraq, tarix boyu türk dünyasına inteqrasiyaya meylli olan ceklilər özlərini "Qafqaz türkü" hesab edir. Azərbaycanlıların tərkib hissəsi olan ceklilər özlərini "azərbaycanlı" kimi qeyd edir. Onlar digər xalqlarla, xüsusən də Azərbaycanda yaşayan milli etnik qruplarla, daha çox isə "Şahdağ qrupu" xalqları olan buduqlular, əliklilər, haputlular, xınalıqlılar, qırızlılar, yergüclülər, həmçinin qalayxudatlılarla qaynayıb-qarışıb və çox geniş qohumluq əlaqələrinə malikdir.

Ceklilərin adət və ənənələri daha çox oğuz türklərinin adət-ənənələri ilə yaxındır. Onların əsas məşğuliyyəti heyvandarlıq, əkinçilik və toxuculuq olub. Kişilər əsasən qoyunçuluqla, qadınlar yundan müxtəlif məmulatlar - xalça, palaz, kilim, şal, corab toxumaqla məşğul olurdu. Cek kəndi Quba xalçalarının ən parlaq kompozisiyalarından biri olan "Cek xalçaları"nın mərkəzləşmiş məntəqəsi hesab olunur. "Cek xalçaları" Azərbaycan xalçalarının Quba-Şirvan tipinin Quba qrupunun dağlıq hissəsinə aid edilir.

Azərbaycan mətbəxinin zəngin çeşidlərindən bəhrələnən Cek mətbəxini Azərbaycan mətbəxindən fərqləndirən əsas cəhət xüsusi hazırlanan bəzi mətbəx nümunələrinin mövcudluğudur. Bunlara misal olaraq curum, qiləc, çama-fu, sərgil-afar və boqortc-halva kimi nümunələri sadalamaq kifayətdir.

Cek kəndinin əlverişli coğrafi mövqeyi ceklilərdə turizm sektoruna çox böyük maraq yaradıb. Hazırda Cek kəndi Quba-Təngəaltı-Xaltan və Quba Qəçrəş-Minarə istiqamətləri ilə birlikdə rayonda turizmin inkişafının üç əsas istiqamətindən biri olan Quba-Cek-Xınalıq istiqamətinin mərkəzində yerləşir.

Əvvəlki dövrlərdə əsl səyahət, istirahət, turizm məskəni olan Cek kəndinin əhalisinin rayon mərkəzi ilə əlaqəsi payız-qış aylarında tamamilə kəsilir, yaz-yay aylarında isə çox çətinliklə mümkün olurdu. Həmin dövrdə ceklilər nəqliyyat vasitəsi kimi hazırda Buduq və Qrızlılar üçün olduğu kimi, əsasən "QAZ-66", "QAZ-53", "ZİL","UAZ" "Niva" markalı avtomobillərdən və xüsusilə də atdan istifadə edirdi.

Cek kəndinə gedişi yaxşılaşdırmaq məqsədilə hələ 1987-ci ildə Quba-Qəçrəş-Qrızdəhnə-Xınalıq adlandırıan avtomobil yolunun tikintisi Prezident İlham Əliyevin göstərişi ilə 2006-cı il oktyabr ayının 7-də başa çatdırılıb və ölkə prezidenti özü şəxsən 57 kilometrlik Quba-İspik-Xınalıq yolunun istifadəyə verilməsi mərasimində iştirak edib.

Cek kəndində təhsillə bağlı müəyyən addımlar atılıb. Belə ki, 2006-cı ilin əvvəllərində Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb" proqramına əsasən, Cek kəndində hələ 1928-ci ildə yaradılan məktəbin son illərdə tamamilə yararsız vəziyyətə düşmüş binası bərpa edilərək istifadəyə verilib.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Xınalıq kəndində konteyner formasında olmaqla 128 nömrəlik, Əlik kəndində isə 64 nömrəlik elektron ATS-lərin quraşdırılmasını, yeni ATS-lərin keyfiyyətli işini təmin etmək üçün Söhüb və Əlik kəndləri arasında 10 km-lik, Əlik və Xınalıq kəndləri arasında 16 km-lik fiberoptik kabel xətlərinin çəkilişini, Qrız kəndində 4 ədəd, Qırızdəhnə kəndində 8 ədəd peykdən qəbul üsulu ilə telefonun verilməsini, Bostankeş yaşayış məntəqəsinə, Cek, Haput, Qalayxudat kəndlərinə telefon çəkilişini, Əlik kəndində yeni televiziya stansiyasının və FM vericisinin quraşdırılmasını, sakinlərin müraciətlərinə əsasən Xınalıq kəndində AzTV və İTV-dən başqa "Lider" TV-nin də yayımını, Xınalıq kəndində "Azercell" mobil telefon rabitəsinin yayılmasını təmin edib. Bununla da Şahdağ platosunda yerləşən ən ucqar yaşayış məntəqələrinin sakinləri dünyanın istənilən nöqtəsi ilə telefon və internet rabitəsi yaratmaq imkanı əldə edib. Yaradılan imkanlar bu ərazilərdə, xüsusilə Cek kəndində turist qəbulunda yeni imkanlar yaradır.

Yazı "Qafqaz Araşdırmaları Mərkəzi" İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirilən "Azərbaycanda mədəni müxtəliflik dəyərləri və onun turizmin inkişafında rolunun təbliği (Şahdağ milli etnik qrupu)" layihəsi çərçivəsində hazırlanıb.

№ 144 (4042) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

20 AVQUST 2019-cu il

www.baki-xeber.com

# Misli görünmәmiş kosmos fәlakәti baş verdi

## Süni boğaz yaradıldı

Araşdırmaçılar, boğaza yerlәşdirilә bilәn vә danışmağı tәmin edәn süni bir boğaz yaratdı. Danışıq prosesi boğazın içindә hәm ağız hәrәkәtlәri, hәm dә sәs tellәrindәn ibarәt olan toxumaların titrәşmәlәrini ehtiva edәn kompleks bir әmәliyyatdır. Mәsәlәn, bir insanın sәs tellәri zәrәr görsә, danışmaq bacarığını tamamilә itirә bilәr. Araşdırmaçılar boyuna taxıldığında boğaz hәrәkәtlәrini sәslәrә çevirә vә geyilә bilәn süni bir boğaz yaratdılar. Alimlәr süni boğazı yaratmaq üçün incә bir polivinil spirt lenti üzәrinә lazerlә qrafen yerlәşdirdi. Üstәlik, bu cihaz bir insan dırnağının yalnız ikiqat böyüklüyündәdir. Daha sonra, bu cihazı könüllü bir insanın boğazına yapışdıran qrup, cihazı bir dövrә kartı, mikro kompyuter, güc amplifikatoru vә kod hәll edici ehtiva edәn kiçik bir vәsaitә elektrodlarla bağladılar. Könüllü adam sәs çıxarmadan danışıq hәrәkәtlәrini etdikdә, cihaz adamın boğaz hәrәkәtlәrini qәbul edәrәk 'tamam' vә 'xeyr' kimi sözlәr çıxardı. Araşdırmaçılar, bu cihazın gәlәcәkdә danışma qüsuru olan fәrdlәr tәrәfindәn istifadә edilә bilәcәyini ifadә etdi.

**Gözlәnilmәyәn kosmik fәlakәt aşkarlanıb. "Ölkә.az" bildirir ki, Ligo kollaborasiyası alimlәri müşahidә tarixindә ilk dәfә olaraq qara dәlikdәn vә neytron ulduzundan ibarәt ikili sistem olan GCN 25324 cazibә dalğaları mәnbәyinin aşkarlanmasının kәşfini mümkün elan edriblәr.**

Obyektlәrin birlәşmәsi zamanı qara dәlik neytron ulduzunu parçalayıb vә onun maddәsini udub. Hadisә avqustun 14-dә qeydә alınıb, lakin aprel ayında tәdqiqatçılar siqnal zәif olsa da, qara çuxur vә neytron ulduzun yaxınlaşmasının әlamәtlәrini aşkar ediblәr. Hesablamalara görә, toqquşma yerdәn 900 milyona yaxın işıq ili mәsafәsindә baş verib. Astronomlar yüksәkliklәdә ikili sistemin ehtimal olunan yerinin bölgәsini 23 kvadrat dәrәcәyә qәdәr daraltmağa müvәffәq olub (Ayın görünәn ölçüsü tәxminәn yarım dәrәcәdir). Hesablamalara görә, 99 faiz ehtimalı ilә neytron ulduzu olan әn yüngül komponentin kütlәsi üçdәn az günәş kütlәsidir. İkili qara dәlik vә ya ikiqat neytral ulduz - 99 faiz ehtimalı ilә ikili sistem özü az bir faiz ehtimalı ilә qara dәlik vә neytron ulduz tәşkil edir.



# Alimlәrdәn yeni tapıntı

**Antarktikada qar araşdıran alimlәr ilk dәfә olaraq Yer kürәsinә düşmüş interstellar mәkanından toz aşkar ediblәr.**

"Ölkә.az" xәbәr verir ki, bu barәdә yeni elmi işdә bildirilib. Alimlәr qeyd edirlәr ki, bu tapıntılar günәş sistemimizin mütәmadi olaraq keçdiyi interstellar tozunun sirli buludlarına işıq gәtirә bilәr. Hәr gün yerin sәthinә düşәn - kometlәrin keçmәsi, asteroidlәrin toqquşması vә ulduzların partlaması nәticәsindә yaranan ekstraterrestrial mәnşәli toz tonlarladır. İnterstellar mәkandan olan tozun öyrәnilmәsindә әsas problem ondan ibarәtdir ki, alimlәr tez-tez bu tozu sәthә düşdükdәn sonra kifayәt qәdәr tez aşkar edә bilmirlәr vә buna görә dә Günәş sisteminin әtrafdakı interstellar mәkanında olan tozla son qarşılıqlı әlaqәsi haqqında bәzi mühüm tәfәrrüatları müәyyәn etmәk imkanına malik deyillәr. Lakin, Avstraliya Milli Universitetinin fizik-nüvәçisi Dominik Noll (Dominik Knoll) başçılıq etdiyi yeni bir araşdırmada elm adamları, bu problemi aradan qaldıraraq, Yer sәthinә nisbәtәn yaxınlarda düşәn tozları nәzәrdәn keçirәrәk, interstellar mәkanından gәldiyini dәqiqlәşdirib. İnterstellar mәkanından yaranmış bu toz nümunәlәrinin axtarışı zamanı onun komandası Antarktikada tәxminәn yaşı 20 ildәn az olan 500 kiloqram qar toplayayıb. Qar buz qitәsinin sahilindәn bir neçә yüz kilometr mәsafәdә, Almaniyanın Konen elmi stansiyasının yaxınlığında toplanılıb. Qar әriyәndәn sonra, elm adamları onun tәrkibini sadәcә tәhlil edriblәr vә iki nadir, orta dәrәcәdә radioaktiv izotopların varlığını aşkar ediblәr: dәmir-60 vә manqan-53. (Kimyәvi elementin izotopları nüvәdә neytronların sayı ilә fәrqlәnir). Tәdqiqatçılara görә, әn çox ehtimal olunan dәmir qaynağı-60 ölüm ulduzunun supernovativ, güclü bir partlayışıdır. Digәr tәbii mәnbәlәr bu izotopun tapıldığı miqdarın yalnız onuncu hissәsini izah edә bilib. Lakin, dәmir-60 vә manqan-53 dә planetlәrarası kosmik şüaların toz hissәciklәrinin bombalanması ilә yarana bilәr. Bununla yanaşı, Knoll vә hәmkarları dәmir-60 vә manqan-53 әdәd arasında apardıqları müşahidә münasibәtin bu mexanizm üçün çox yüksәk olduğunu göstәrib.

## Elan

Şәki şәhәr sakini Mustafayev İlqar Əliәskәr oğlunun adına verilmiş 1373726 nömrәli Daşınmaz әmlakın Dövlәt reyestrindәn çıxarış itdiyi üçün etibarsız sayılır.

Şәki şәhәr sakini Camalov Elnur Hәsәnsultan oğlunun adına verilmiş 0005656 nömrәli Daşınmaz әmlakın Dövlәt reyestrindәn çıxarış itdiyi üçün etibarsız sayılır.

Qurbanova Nigar Qonaq qızına mәxsus, Bakı şәhәri, Yasamal rayonu, S.Dadaşov küçәsi, ev №13 ünvanının çıxarışı vә texniki pasportu itdiyi üçün etibarsız sayılır.

**Azәr Abdulla vә Şükür Şәnol şair Oqtay Rzanın vәfatından kәdәrlәndiklәrini bildirir, ailәsinә vә doğmalarına dәrin hüznlә başsağlığı verirlәr. Allah rәhmәt elәsin!**





**Qoç** - Oberon vә Mirandanın münasibәtlәri zәngin emosional fonlu gün vәd edir. Hadisәlәrin inkişaf mәcrası sizin nüansları sezmәk vә görmәk bacarığınızdan asıldır. Böyük, ciddi yeniliklәr olmayacaq, sizdәn әlahiddә sәylәr tәlәb edilmәyәcәk.



**Buğa** - Kallisto vә Leda xәbәrlәr, tәmaslar vә әlaqәlәrlә bol gün vәd edir. Nәyisә tәşkil etmәk, aramaq, mәlumat axtarmaq lazım olacaq. İşlәrinizin effektivliyinin orta hәddәn aşağıya düşmәsinә imkan vermәyin.



**Əkizlәr** - Umbriel vә Titanianın münasibәtlәri sizi bir qәdәr geriyә qaytaracaq. Nigaranlıq, narahatlıq, qayğı hisslәri yaranacaq. Yaxın әtrafınızdakı insanların davranış vә sözlәrindәn narazı qala bilәrsiniz.



**Xәrçәng** - Enselad vә Titanın münasibәtlәri bu gün sizdәn ehtiyatlı davranmağı istәyir. Yaşananları, baş verәnlәri diqqәtlә müşahidә edin, sadәlövhcәsinә davranmayın.



**Şir** - Günәş vә Neptunun münasibәtlәri diqqәtinizi praktik müstәvidәn kәnarlaşdıra bilәr. Tәhlükәsizliyi düşünün, böyük riskә getmәyin, çox iş görmәyә tәlәsmәyin. Bir istiqamәtdә hәrәkәt edin, yaranan imkanları dәyәrlәndirin.



**Qız** - Andromeda vә Fobosun münasibәtlәri hadisәlәrin gedişatında qәfil mәqamların yaranmasına sәbәb olur. Möhtәşәm planlarınız olsa da, hәlәlik onların vaxtı deyil.



**Tәrәzi** - İo vә Kallistonun münasibәtlәri әvvәlki vaxtlarla müqayisәdә daha çox sәy, zәhmәtkeşlik tәlәb edәcәk. Sәrfәli vә gәlirli, lazım saydığınız işlәrin hamısını görmәyә çәtinlik çәkәcәksiniz.



**Əqrәb** - Haron vә Tritonun münasibәtlәri hisslәrdә gәrilmә vәd edir. Qarışıqlıq vә yubanmalar bәzi işlәri vaxtında görmәyә mane olacaq. Fikirlәriniz cari işlәrdәn çox kәnarda olmasın, fantaziya vә xәyallar şüurunuza hakim kәsilmәsin.



**Oxatan** - Venera vә Plutonun münasibәtlәri ciddi işә başlamağınızı tәlәb edir. Mәhdudiyyәtlәr vә çәtinliklәr qaçılmazdır. Doğru yolla, seçilmiş kursla irәlilәdiyinizi düşünürsünüzsә, problemlәr olmamalıdır.



**Oğlaq** - Mars vә Saturnun münasibәtlәri çәtin gün vәd edir. Hissiyatınız artacaq, başqasının enerji tәsirinә mәruz qalacaqsınız. İstәnilәn hadisәnin inkişaf mәcrasında emosiyalar mühüm rol oynayır.



**Dolça** - Amalteya vә Hanimedin münasibәtlәri bol imkanlar, çoxlu yollar yaradır. Fikrinizi cәmlәyin, qarşınıza konkret mәqsәd qoyaraq ona çatmağa çalışın. Cari işlәri, xüsusilә dә maliyyә mәsәlәlәrini fasilәsiz nәzarәtdә saxlayın.



**Balıqlar** - Ay vә Deymosun münasibәtlәri emosionallığın çox energetikanın az olduğu gün vәd edir. Qәtiyyәtli olun, hәr önәmli hadisә, situasiyadan әvvәlcә psixoloji vә fiziki baxımdan özünüzü hazırlayın.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Ürәk xәstәliklәrinin sәbәbi bәlli oldu

**Ürәk xәstәliklәrinin yayılmasının әsas sәbәbi fast food restoranlar imiş.**

"Ölkә.az" bildirir ki, kardioloqlar bu әlaqәni Yeni Cәnubi Uels sakinlәrinin mәlumatlarının tәhlilinin nәticәlәrinә әsasәn müәyyәnlәşdirib. Belә ki, hәr yeni "fast food" müәssisәsi üçün ildә dörd yeni infarkt hadisәsi qeydә alınıb. Ümumilikdә, 3070 nәfәr 2011-2013-cü illәrdә ürәk çatızmazlığı ilә xәstәxanaya yerlәşdirilib. Bu isә mütәxәssislәrin diqqәtini cәlb edib. Ekspertlәr piylәnmәnin, hipertoniyanın, diabetin, siqaret çәkmәnin vә infarktın riskini artıra bilәcәk digәr amillәrin mövcudluğunu nәzәrә alıblar. Hәmçinin "fast food" müәssisәlәrinin ümumi sayı, onların yeri sıxlığı vә infarkt statistikası müәyyәn edilib. Alimlәr "fast food" nöqtәlәrinin yerlәşdirilmәsinin sıxlığını azaltmağa vә mağazaların sağlam qidalarla mövcudluğunu artırmağa çağırıblar. Hesabatda deyilir: "fast food"un istifadәsi ölümcül vә qeyri-ölümcül infarkt tutmalarının daha yüksәk ehtimalı ilә bağlıdır. Aşağı qida keyfiyyәti, yüksәk miqdarda duz, şәkәr vә doymuş yağlarda bu cür qidaların hazırlanması da sәbәblәr sırasındadır. Buna baxmayaraq, "fast food"un alışında sürәtli artım var".

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.